QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 138 (5610) 25 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycan güclü iqtisadiyyata malikdir

*İlham Əliyev: "İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur"*



Səh 2

3

"Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri ən yüksək səviyyədədir"



12

Ermənistanda hakimiyyət "piramidası" artıq dağılır



16

AFFA-nın İcraiyyə Komitəsinin iclası keçirilib



# Azərbaycan güclü iqtisadiyyata malikdir

## *İlham Əliyev: "İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur"*

***Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülür.***



Azərbaycan Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib. "Hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata və davamlı inkişafa nail olmaqla, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır"- deyən ölkə başçısının iradəsi və göstərişləri ilə ölkəmizdə ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Prezidentinin sərəncamları ilə, ölkənin sosial-mədəni və iqtisadi sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafına dair qəbul olunmuş dövlət proqramları, müvafiq qanunvericilik aktları ölkə ərazisində olan torpaq ehtiyatlarından səmərəli şəkildə istifadə üçün geniş imkanlar açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı ilin birinci yarısının inkişaf göstəricilərini diqqətə çatdıraraq, bildirib ki, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artıb: "Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artıb. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir".

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında yay və qış otlaqlarından səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı" və s. bu sahənin inkişafına yeni yollar açıb. Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı istiqamətində və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetirilməsinin nəzərdə tutulması da, bu sahəyə göstərilən diqqətin daha bir nümunəsidir.



Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə kənd təssərrüfatının inkişafı ilə bağlı verdiyi fərman və sərəncamlar bu sahənin inkişafına yönəlib. Pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün inkişafında uğurlar əldə olunub. Kənd təsərrüfatına dövlət dəstəyinin daha da artırılması, pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün və heyvandarlığın kompleks inkişafının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi üçün ciddi addımlar atılıb. Cənab Prezident çıxışında kənd təəssüratının 7,6 faiz artdığını, bitkiçiliyin isə 14 faizdən çox artdığını diqqətə çatdırıb: "67 min yeni iş yeri yaradılıb. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artıb. İnflyasiyanın aşağı səviyyədə olması, onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir".




Təbii ki, kənd təsərrüfatı sahəsinə ayrılan dövlət diqqətinin təzahürüdür ki, bu irəliləyişlər əldə olunub.

Göründüyü kimi, son illər kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştlər və subsidiyalar, həmçinin, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin 2019-cu ilədək, torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilməsi ölkədə kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynayıb.

Əlbəttə ki, kənd təsərrüfatının digər sahələrində də sitrusçuluq, çayçılıq, çəltikçilik və s. sahələrində də inkişaf nəzərə çapacaq dərəcədədir.

Cənab Prezident çıxışında kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələrdən birinin bu sahədə ən müasir standartları tətbiq etmək olduğunu bildirib: "Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texnika parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək, ancaq onun əsas hissəsi həll olunub. Özü də qeyd etməliyəm ki, dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar. Bu məqsədlə böyük vəsait nəzərdə tutulur. Burada qeyd olundu, təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq. Keçən il 10 min texnika alınmışdır. Ancaq bu sahədə bundan sonra şəffaflıq tam təmin edilməlidir".

Qeyri-neft sektorunun inkişafına ayrılan diqqət bu nailiyyətlərə təkandır. Görülən bu və ya digər işlər Azərbaycan Prezidentinin apardığı balanslaşdırılmış sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir. "Bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır", - deyən Cənab Prezident güclü iqtisadiyyat qura bildiyimizi vurğulayıb: "... bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur".

**Nəzakət ƏLƏDDİNQIZI**

## Novruz Məmmədov: "Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri ən yüksək səviyyədədir"



İyulun 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Baş nazir Novruz Məmmədov Azərbaycan və Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu vurğulayıb. Baş nazir bildirib ki, dost və qardaş ölkələr olan Azərbaycan



ilə Türkiyə arasında çox möhkəm və sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bölgədə sabitlik, təhlükəsizlik və inkişaf üçün Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri mühüm əhəmiyyət daşıyır.

Yüksək səviyyəli qarşılıqlı səfərlərin ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynadığını vurğulayan Azərbaycanın Baş naziri bu yaxınlarda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etdiyini diqqətə çatdırıb. Türkiyə dövlətinin başçısının prezident seçkilərindən sonra ilk rəsmi səfərini Azərbaycana etməsinin ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin göstəricisi olduğunu deyən Baş nazir bunun xalqlarımız arasında formalaşan çox gözəl ənənə olduğunu diqqətə çatdırıb. Dövlətlərimizin başçıları hər seçkidən sonra ilk səfərlərini qarşılıqlı olaraq dost ölkələrə etməklə bu ənənəni bütün dünyaya nümayiş etdirirlər. "Qardaş Türkiyədə seçkilərdən sonra inkişafın yeni mərhələsi başlayır. Türkiyə hər zaman qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləyib və bundan sonra da irəliləyəcək. Qardaş Türkiyənin uğurları bizim uğurlarımızdır. Bu nailiyyətlər bizi sevindirir",- deyə Novruz Məmmədov qeyd edib.

Baş nazir Azərbaycanın və Türkiyənin birgə təşəbbüsü ilə həyata keçirilən qlobal layihələrdən danışaraq bildirib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi layihələrin reallaşması ölkələrimiz arasındakı sarsılmaz qardaşlıq münasibətlərini təcəssüm etdirir. Bu layihələr təkcə bizim ölkələrin deyil, region xalqlarının rifahının artmasına, beynəlxalq əməkdaşlığın güclənməsinə töhfələr verir.

Ölkələrimizin bütün beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etdiyini bildirən Baş nazir Novruz Məmmədov qeyd edib ki, Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində də daim Azərbaycanın yanındadır və ölkəmizə böyük dəstək göstərir.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Novruz Məmmədovu Baş nazir təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Yeni təyinatdan sonra ilk xarici səfərini Azərbaycana həyata keçirən Mövlud Çavuşoğlu ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayaraq deyib ki, xalqlarımızın və dövlətlərimizin başçılarının sıx dostluq və qardaşlıq əlaqələri münasibətlərimizin daha da möhkəmlənməsində mühüm rol oynayır. Bu münasibətlərin bariz nümunəsinin Türkiyə və Azərbaycan prezidentlərinin bu yaxınlarda Brüsseldə keçirilən NATO Zirvə görüşündə bir daha şahidi olduq. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Latviyada Azərbaycan Ticarət Evinin yaradılması ixrac bazarının genişləndirilməsi işinə töhfədir




Azərbaycan ilə Latviya arasında əlaqələr hər iki ölkənin dövlət başçılarının siyasi iradəsi nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkələrimizin iqtisadi əməkdaşlığı dinamik şəkildə inkişaf edir. Bu sözləri AZƏRTAC-a açıqlamasında iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib.

Nazir müavini bildirib ki, Latviyada Azərbaycan Ticarət Evinin yaradılması ölkəmizin ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində həyata keçirilən tədbirlərə bir töhfə olacaq. Bu, eyni zamanda, Azərbaycan məhsullarının Latviya bazarında təşviqi istiqamətində geniş imkanlar yaradacaq və nəticə etibarilə, Azərbaycanda həyata keçirilən qeyri-neft ixracının genişləndirilməsinə bir töhfə olacaq. Bütün bunlar həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir. "Əlbəttə Azərbaycan Ticarət Evinin əsas istiqamətlərindən biri ölkəmizin məhsullarının Latviyaya və Latviya vasitəsilə digər Avropa ölkələrinə ixracı istiqamətində tədbirlər görmək, hər iki ölkənin iş adamları arasında əlaqələr yaratmaqdan ibarətdir. Hesab edirəm ki, bu cür platforma vasitəsilə Azərbaycan məhsulları təkcə Latviya bazarına deyil, digər ölkələrin də bazarlarına çıxış imkanı əldə edəcək. Burada qeyd etmək olar ki, ölkəmizə əlavə valyutanın daxil olması, eyni zamanda, Azərbaycan iş adamlarının avropalı iş adamları ilə əlaqələrinin inkişaf etdirilməsi vacib məqamlardan biridir. Əminəm ki, görülən işlər qısa müddətdə müsbət nəticələrini göstərəcək", - deyə nazir müavini vurğulayıb.

## Mövlud Çavuşoğlu: "Türkiyə və Azərbaycanın həyata keçirdiyi birgə layihələr regionda böyük iqtisadi inkişafa səbəb olacaq"




Türkiyə və Azərbaycanın birgə fəaliyyəti təkcə ölkələrimiz deyil, bütövlükdə region üçün önəmlidir. Ölkələrimizin həyata keçirdiyi birgə layihələr regionda böyük iqtisadi inkişafa səbəb olacaq.

Bu fikirləri iyulun 24-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Elmar Məmmədyarov ilə birgə mətbuat konfransında deyib. Nazir qeyd edib ki, bu gün bir çox ölkələr Bakı-Tbilisi-Qars layihəsinə qoşulmaq istəyirlər. İki qardaş ölkənin əməkdaşlığı enerji sahəsində daha da genişlənir və dərinləşir. Biz hər sahədə sıx əməkdaşlıq edirik. Mövlud Çavuşoğlu vurğulayıb ki, Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Qarşıda görüləcək işlərimiz çoxdur. Beynəlxalq təşkilatlarda da fəaliyyətimizi gücləndirməyi nəzərdə tuturuq. Bu gün beynəlxalq təşkilatlarda irqçilik, ayrı-seçkilik daha çox özünü büruzə verir. Bu baxımdan Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlarda birgə fəaliyyəti gücləndirəcək.

## Beynəlxalq Böhran Qrupu: "Ermənistanın yeni rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həllinə etinasız yanaşır"

International Crisis Group

Ermənistanın yeni rəhbərliyi 30 ildir davam edən Dağlıq Qarabağ probleminin həllinə etinasız yanaşır və bu münaqişənin nizama salınmasında rəsmi Yerevanın uzun illərdir davam edən mövqeyini qoruyub saxlayır.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Böhran Qrupunun rəsmi saytında yerləşdirilmiş 2018-ci il üçün ikinci hesabatda Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin nizama salınmasına qeyri-konstruktiv mövqeyi tənqid edilir. Bildirilir ki, başı daxili problemlərin həllinə qarışmış Ermənistan hökumətinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına biganə münasibəti gərginliyin artmasına səbəb ola bilər. Münaqişənin həlli istiqamətində hər hansı irəliləyişin olmaması Azərbaycanı öz ərazilərini hərbi yolla qaytarmağa məcbur edə bilər.

Hesabatda rəsmi Bakının uzun müddətdir davam edən qeyri-müəyyənlikdən narazı olduğu və bunun da onun status-kvonu dəyişdirmək niyyətini gücləndirə biləcəyi qeyd edilir. Münaqişənin yenidən alovlanmasının 2016-cı ilin Aprel döyüşlərindən də ağır nəticələrə gətirib çıxaracağı vurğulanan hesabatda deyilir ki, güzəştə getməkdən imtina edən Ermənistan hökuməti sərhəd bölgəsindəki 300 min dinc əhalinin, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində raketlərin və artilleriyanın yaxınlığında yaşayan 150 min erməninin taleyini düşünməlidir.

## MN: "Azərbaycanın hava məkanının, dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyi təmin edilir"



Son günlər Ermənistan mətbuatının təhlili göstərir ki, bu ölkənin hərbi-siyasi rəhbərliyinin və Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin bir-birindən sərsəm bəyanatlar səsləndirmələri onların ciddi narahatlıq keçirmələrinin, qorxu və təşviş içində olmalarının sübutudur.

Bunu Azərbaycanın işğal olunmuş ərazilərindəki cinayətkar hərbi rejimin rəhbəri Levon Mnasakyanın "Lazım gələrsə, Mingəçevir SES-ə dərhal zərbə endiriləcəyi" barədə dedikləri ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

"Azərbaycan Ordusu cəbhə xəttində vəziyyətin istənilən inkişafına hazırdır. Ordumuzun sərəncamında olan və dağıdıcı qüvvəyə malik ən müasir silah sistemləri düşmənin bütün vacib hərbi obyektlərini və strateji kommunikasiya xətlərini qısa müddətdə məhv etməyə qadirdir. L.Mnakasyanın budəfəki absurd bəyanatına gəlincə isə, Azərbaycan hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri ölkənin bütün hava məkanının, o cümlədən xüsusi əhəmiyyətli dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyini təmin edir. Düşmən tərəf belə məsuliyyətsiz bəyanatlar səsləndirməzdən əvvəl düşünməlidir ki, Ermənistanın ərazisində elə obyektlər var ki onlara zərbə endirəcəyimiz təqdirdə həmin ərazilərdə yüz illərlə yaşayış mövcud olmayacaq", - deyə Müdafiə Nazirliyinin cavabında xüsusi vurğulanıb.

## Rusiya gənclərinin Azərbaycana səfəri başlayır

GƏNCLƏR və İDMAN NAZİRLİYİ

Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının üzvlərindən və ali məktəb tələbələrindən ibarət nümayəndə heyəti Azərbaycana səfər edəcək. Bu barədə SİA-ya Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Samaya Məmmədova məlumat verib. O bildirib ki, hər il Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri xanım Leyla Əliyevanın dəvəti ilə Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının üzvlərindən və ali məktəb tələbələrindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri təşkil edilir: "Bu il də ənənəvi olaraq, 24-29 iyul 2018-ci il tarixlərdə nümayəndə heyətinin Azərbaycana səfəri planlaşdırılır. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycanın mədəniyyəti, elmi və tarixi ilə tanış olacaqlar, bir sıra dövlət və qeyri-hökumət təşkilatların nümayəndələri ilə görüşəcəklər".

# Azərbaycan-Fransa əməkdaşlığı yeni inkişaf mərhələsində

## *Prezident İlham Əliyevin Fransaya rəsmi səfəri bu əlaqələrin daha da möhkəmlənməsinə böyük töhfə verəcək*



***Azərbaycan Prezident İlham Əliyevin iyulun 19-20-də Avropada növbəti səfərini Fransaya etməsi həm iqtisadi, həm də siyasi baxımdan əlamətdar hadisə kimi dəyərləndirilir. Bu səfər, onu göstərdi ki, Fransanın timsalında Qərb Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Azərbaycanın xarici siyasətində Fransa ilə münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verən Fransa ikitərəfli əlaqələrin yüksək səviyyədə saxlanılmasında maraqlıdır. Prezident İlham Əliyevin Fransaya səfəri strateji xarakter almış münasibətlərin sürətli inkişafına yeni impuls verəcəyi şübhə doğurmur.***

Onu da vurğulamaq yerinə düşər ki, 1991-ci il dekabrın 31-də Sovet İttifaqının süqutu elan edildəndən 3 həftə sonra Fransa, rəsmi olaraq, Azərbaycanın müstəqilliyini tanımışdı. Belə bir qərarı Türkiyədən sonra qəbul edən Fransa 1992-ci il martın 19-da Bakıda öz səfirliyini açmışdı. Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Fransa həmin tarixdən başlayaraq, Azərbaycanla siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı davam etdirsə də, bu münasibətlərdə soyuqluq olmuşdur. Yalnız Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkələr arasında münasibətlər yaxşılığa doğru dəyişməyə başlamışdır. Bu uğurlu siyasətin davamçısı Prezident İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra ilk xarici və rəsmi səfərini Fransaya etmişdi. O zamandan bu günədək prezident, nazirlər və seçkili orqanlar səviyyəsində ikitərəfli səfərlər davam etdirilməkdədir.

Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfərə gələn dövlət başçımız fransalı həmkarı ilə müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyini bildirmiş, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransa Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə etmişdir.

Fransanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşı olan Azərbaycanla telekommunikasiya, şəhərsalma, nəqliyyat, yüngül sənaye, şərabçılıq və digər sahələrdə əməkdaşlığı getdikcə möhkəmlənir. Hazırda respublikamızda 50-dən çox fransız şirkəti fəaliyyət göstərir və ticarət dövriyyəsi getdikcə artır. Fransız müəssisələri neft və neft məhsullarının istehsalı ilə yanaşı, bank, elektrik enerjisi və ətraf mühitin qorunması və istehlak malları sektorlarında fəaliyyət göstərir. Həmin müəssisələrin bir qismi, həmçinin Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərini idarə edən konsorsiuma daxildir.



Qısamüddətli olsa da, səfər çərçivəsində, demək olar ki, bütün sahələri əhatə edən görüşlər keçirilib. Prezident İlham Əliyev Fransanın 11 ən nüfuzlu şirkətinin rəhbəri ilə görüşüb və bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığını da vurğulamışdır. Səfər çərçivəsində imzalanmış sənədlərin iki ölkə arasında dinamik inkişaf edən siyasi-iqtisadi əlaqələri keyfiyyətcə yeni mərhələyə çıxaracağı şübhə doğurmur.

### Prezident İlham Əliyevin uğurlu Fransa səfəri və Ermənistana növbəti zərbə

Prezident İlham Əliyevin Fransaya səfəri zamanı müzakirə olunan əsas məsələlərdən biri də Dağlıq Qarabağ münaqişəsi oldu. Milli Məclisin deputatı Elman Nəsirov Azərbaycan Prezidentinin iyulun 20-də Fransanın Prezidenti Emmanuel Makron ilə keçirdiyi görüşlərin və apardığı danışıqların ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin inkişafı üçün geniş imkanlar olduğunu vurğulayıb. E.Nəsirov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi ilə bağlı iki dövlət prezidentləri arasında aparılan müzakirədə Fransanın bu münaqişənin beynəlxalq hüquq çərçivəsində həllini dəstəklədiyini söyləyib: "Fransa prezidenti, eyni zamanda, münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında tənzimlənməsində maraqlıdır. Bu qətnamələrdə, məlum olduğu kimi, söhbət Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə və qeyd-şərtsiz çıxarılmasından gedir. Faktiki olaraq, Fransa Prezidenti rəsmi Parisin münaqişənin həllində hansı prinsiplərə üstünlük verdiyini nümayiş etdirdi. Makron, bir daha qeyd etdi ki, o özü bu tənzimləmə prosesinin həyata keçirilməsində olduqca maraqlı tərəfdir. Nəzərə alsaq ki, Fransa ATƏT-in Minsk Qrupunun həmsədr dövlətidir, eyni zamanda, Fransa prezidentinin məlum yanaşması Azərbaycan tərəfinin diplomatik uğuru kimi də dəyərləndirilə bilər.

Milli Məclisin deputatı Musa Qasımlı Prezident İlham Əliyevin Fransaya səfərinin iki ölkə arasındakı münasibətlərə yeni dinamizm verəcəyini vurğulayıb: "Hesab edirəm ki, Azərbaycan-Fransa münasibətlərinin geniş perspektivləri və böyük potensialı var. Prezident İlham Əliyevin Fransaya səfəri həmin potensialı hərəkətə gətirəcək və iki ölkə arasındakı münasibətlərə yeni dinamizm verəcək. Çünki Fransa, hər şeydən əvvəl, dünyanın aparıcı dövlətlərindən biri, BMT Təhlükəsizlik Şurasının daimi üzvü, ATƏT-in Minsk Qrupunun həmsədri, dünyanın "böyük yeddi"lərindən biridir. Elə bu amillər səfərin necə böyük əhəmiyyət daşımasının göstəricilərindəndir".

Siyasi ekspert Elçin Mirzəbəyli Azərbaycan Prezidentinin Fransaya səfərinin böyük əhəmiyyətə malik olduğunu deyərək, bildirib ki, Fransanı Azərbaycanın maraqları baxımından önəmli edən məqamlardan biri də burada çoxsaylı erməni diasporunun mövcudluğu və onların uzun illər boyu ölkəmizə qarşı apardıqları qarayaxma kampaniyası, Fransa-Azərbaycan, Avropa İttifaqı-Azərbaycan münasibətlərinə zərbə vurmaq niyyətləridir: "Lakin erməni diasporu və lobbisinin apardığı total qarayaxma kampaniyasına və çoxsaylı təxribatlara baxmayaraq, Azərbaycan, nəinki qarşılıqlı münasibətlərin inkişafına mane ola biləcək amillərin aradan qaldırılmasına, hətta əlaqələrin strateji tərəfdaşlıq perspektivi vəd edən müstəviyə qədəm qoymasına nail olub".

Göründüyü kimi, Prezident İlham Əliyevin Fransaya səfəri iki ölkə arasında əlaqələrin inkişafı baxımından, olduqca uğurlu bir səfər olmaqla yanaşı, Ermənistan rəhbərliyinin apardığı yalançı və işğalçılıq siyasətinə güclü bir zərbə oldu.

**RƏFİQƏ HÜSEYNOVA**

# AXC-nin 100 illiyi ilə bağlı keçirilmiş müsabiqənin nəticələri açıqlanıb



İqtisadiyyat Nazirliyinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı KİV nümayəndələri arasında "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda keçirdiyi müsabiqənin nəticələri açıqlanıb. Nazirlikdən SİA-ya verilən məlumata görə, nazirlik rəsmilərinin və KİV nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayıb.



İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bu il yaranmasının 100-cü ildönümünü qeyd olunan və müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşasa da, milli dövlətçilik tarixində silinməz izlər qoyduğunu, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün zəmin yaratdığını deyib. Bildirib ki, Cümhuriyyət dövründə milli ordu quruculuğu, maarif və mədəniyyət, xaricdə təhsil sahələrində, eləcə də ölkənin sosial-iqtisadi inkişafı və xarici iqtisadi-ticarət əlaqələrinin yaradılması istiqamətində mühüm işlər görülüb. Belə ki, o dövrdə neft sənayesi ağır vəziyyətdən çıxarılıb, bir çox infrastruktur layihələri reallaşdırılıb, milli pul nişanları tədavülə buraxılıb, Xəzərdə dəniz gəmiçiliyi inkişaf etdirilib, Azərbaycan Dövlət Bankı yaradılıb və s.

Qeyd olunub ki, Cümhuriyyət dövründə başlanılan, amma başa çatdırılmayan bir çox işlər XX əsrin 90-cı illərində müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası tərəfindən həyata keçirilib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ölkəmizin hərtərəfli inkişaf modeli Azərbaycan Xalq Cümhuriyyətinin ali arzularının həyata keçirilməsinə gözəl nümunədir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası möhkəm və sarsılmaz təməl üzərində hərtərəfli inkişaf dövrünü yaşayır. Dayanıqlı və davamlı inkişaf edən Azərbaycan dünyada etibarlı tərəfdaş, beynəlxalq layihələrin təşəbbüskarı və fəal iştirakçısı, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, dünya miqyasında əhəmiyyətli tranzit mərkəzidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cümhuriyyətin yaranmasının 100-cü ildönümünə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, "Əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Niyazi Səfərov 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini dövlət başçısının tariximizə göstərdiyi böyük diqqətin göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov çıxış edərək, İqtisadiyyat Nazirliyi tərəfindən təşkil edilən müsabiqələrdə, eləcə də "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda keçirilən müsabiqədə KİV-in fəal iştirak etdiyini bildirib, iştirakçıları təbrik edərək, müsabiqənin təşkilinə görə İqtisadiyyat Nazirliyinə təşəkkür edib.

Azərbaycan Respublikası yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli dövlət başçısının ölkəmizdə medianın inkişafına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayaraq, KİV-nümayəndələri arasında belə müsabiqələrin təşkilinin önəmini qeyd edib.

İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri, Müsabiqə Komissiyasının sədri Ayaz Əliyev diqqətə çatdırıb ki, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin böyük əksəriyyəti jurnalist olub. XX əsrin əvvəllərində fəaliyyət göstərən demokratikyönümlü mətbuat orqanları xalqı narahat edən problemlərə həssas yanaşıb, azadlıq, istiqlalçılıq, türkçülük ideyalarını təbliğ ediblər. Bildirilib ki, İqtisadiyyat Nazirliyi Cümhuriyyət dövrünün iqtisadiyyatına bir daha nəzərə salmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birgə KİV nümayəndələri arasında müsabiqə elan edib. Müsabiqəyə ümumilikdə 85 məqalə təqdim edilib. Bütün materiallar İqtisadiyyat Nazirliyində yaradılmış komissiya tərəfindən qiymətləndirilib və qaliblər müəyyənləşdirilib.

Tədbirdə qaliblər elan olunub, onlara diplomlar və mükafatlar təqdim edilib. Müsabiqənin digər iştirakçılarına da diplom və hədiyyələr verilib.

# XİN: Yunanıstanda tüğyan edən meşə yanğınlarında ölən və yaralananlar arasında Azərbaycan vətəndaşı yoxdur



Azərbaycanın Yunanıstandakı səfirliyindən verilən məlumata görə, bu ölkədə tüğyan edən meşə yanğınlarında ölən və yaralananlar arasında Azərbaycan Respublikası vətəndaşlarının olması qeydə alınmayıb. Bu barədə AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib. Qeyd edilib ki, Yunanıstandakı səfirliyimiz davamlı əsasda bu ölkənin müvafiq qurumları ilə təmasdadır.

# Vüqar Rəhimzadə: "Azərbaycan Avropa məkanında etibarlı tərəfdaş olduğunu təsdiq edib"



Müstəqilliyinin bərpasından ötən 27 ilə yaxın bir dövr ərzində beynəlxalq birliyin fəal üzvlərindən birinə çevrilən Azərbaycan hər zaman Avropa İttifaqı ilə münasibətlərə xüsusi önəm verib. İstər Avropa İttifaqı, istərsə də quruma üzv olan ölkələrlə ayrı-ayrılıqda qarşılıqlı faydalı əməkdaşlıqlar qurulub, müxtəlif sahələri əhatə edən münasibətlər daha da dərinləşdirilib. Bu mənada Fransanı xüsusi olaraq vurğulamaq lazımdır. Bu günlərdə Prezident İlham Əliyevin Fransaya səfərini Azərbaycan-Fransa, ümumilikdə, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin daha da genişlənməsində və möhkəmlənməsində mühüm amil kimi vurğulamaq lazımdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib. Vüqar Rəhimzadə qeyd edib ki, sözügedən səfər siyasi, iqtisadi, eləcə də digər sahələrdə mühüm razılaşmaların, müzakirələrin əhəmiyyəti ilə yadda qaldı: "Bu gün Azərbaycan-Fransa münasibətləri yüksək səviyyədədir. Avropa İttifaqı ölkələri, o cümlədən Fransa Azərbaycanla geniş iqtisadi əlaqələrə malikdir. Ölkələrimiz arasında uzun illərə söykənən dayanıqlı ticari münasibətlər mövcuddur. Cənab Prezidentimizin Fransaya səfəri zamanı yalnız Fransanın deyil, Avropa və bütövlükdə dünyanın aparıcı iqtisadi qurumlarından şirkətlərin rəhbərləri ilə görüş nəticəsində 2 milyard dollardan çox dəyəri olan anlaşmalar imzalanıb. Hesab edirəm ki, bu mühüm razılaşmalar Azərbaycan və Fransa iqtisadiyyatlarının daha da inkişaf etməsinə müsbət təsir edəcək, ölkələrimiz arasındakı əməkdaşlığı möhkəmləndirəcək".

"İki sahil" qəzetinin baş redaktoru V.Rəhimzadə vurğulayıb ki, Azərbaycan Avropa məkanında etibarlı tərəfdaş olduğunu təsdiq edib: "Fransa Avropa İttifaqının söz sahibi olan ölkələrindən biridir. Möhtərəm Prezidentimizin səfəri zamanı keçirdiyi yüksək səviyyəli görüşlər Fransanın Azərbaycana olan hörmətinin, etibarının, xoş münasibətinin göstəricisidir. Səfər zamanı dövlətimizin başçısının fransalı həmkarı ilə görüşü də xüsusi olaraq vurğulanmalıdır. ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa rəhbərliyinin ölkəmizə və Prezident İlham Əliyevə olan səmimi, yüksək səviyyəli münasibəti Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, ədalətli həllində mühüm amil kimi qiymətləndirilə bilər".

Vüqar Rəhimzadə əlavə edib ki, artıq işğalçı Ermənistan Azərbaycan-Fransa əlaqələrinin daha da möhkəmlənməsindən təlaşa düşərək öz narahatlığını açıq şəkildə büruzə verir: "Bu gün erməni KİV-i Fransanı Azərbaycanla yaxınlaşmaqda günahlandırır, öz qorxularını gizlədə bilmirlər. İşğalçı ölkənin mediası Fransanın Ermənistana xəyanət etdiyini yazır, bu ölkənin Dağlıq Qarabağ münaqişəsində bizim xeyrimizə mövqe tuta bilməsi ilə bağlı anti təbliğat aparırlar. Ancaq bütün bunların heç bir əhəmiyyəti yoxdur. Çünki artıq bütün dünya Azərbaycanın haqlı mövqeyini görür və dəstəkləyir".

# Azərbaycandakı mehmanxanalarda gecələmələr 20 faizədək artıb



Azərbaycandakı mehmanxanalarda gecələmələrin sayı 20 faizədək artıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu ilin yanvar-iyun aylarında ölkə üzrə mehmanxanalarda 1 milyon 288,9 min gecələmə keçirilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 19,3 faiz çoxdur. Gecələmələrin 62 faizi Bakıda, 9,7 faizi Qəbələdə, 5,1 faizi Qusarda, 4,5 faizi Naftalanda, 3,6 faizi Qubada, 3,4 faizi Naxçıvan Muxtar Respublikasında, 1,5 faizi Xaçmazda, 1,1 faizi Ağstafada, 9,1 faizi isə digər rayonlardakı (şəhərlərdəki) mehmanxanalarda qeydə alınıb. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən keçirilmiş gecələmələrin sayı 935,2 min təşkil edib ki, bu da ümumi gecələmələrin 72,6 faizini təşkil edir. Gecələmələrin 14,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 14,1 faizi Rusiya Federasiyası, 6,6 faizi İran, 4,5 faizi Türkiyə, 4,3 faizi Səudiyyə Ərəbistanı, 3,4 faizi Böyük Britaniya, hər biri üzrə 3,3 faiz olmaqla Hindistan və ABŞ, 3,2 faizi İsrail, 2,9 faizi Qətər, 2,8 faizi Küveyt, 2,1 faizi İraq, 2 faizi Pakistan, 1,7 faizi Qazaxıstan, 1,6 faizi Almaniya, 1,3 faizi Ukrayna, 28,6 faizi digər ölkələrin vətəndaşlarının payına düşüb.

Cari ilin birinci yarısında mehmanxanaların gəlirləri 167 milyon manat olub ki, onun 66,3 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 23,8 faizi içkilər də daxil olmaqla qida məhsullarının satışı üzrə xidmətlərdən, 3,8 faizi müalicə və sağlamlıq xidmətlərindən, 6,1 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilib. Mehmanxanaların nömrə fondundan istifadə səviyyəsinin orta göstəricisi ölkə üzrə 20,8 faiz olub. Bu göstərici Naftalanda 58,6 faiz, Ağstafada 48,5 faiz, Bakıda 33,7 faiz, Şirvanda 33,0 faiz, Kürdəmirdə 28,3 faiz, Qəbələdə 27,5 faiz, Zərdabda 25,9 faiz, Qazaxda 23,9 faiz, Mingəçevirdə 22,9 faiz, digər şəhər və rayonlarda isə orta ölkə göstəricisindən aşağı olub.

# Bakı MDB şəhərlərinə yay səyahətlərinin reytinqində liderdir



"TurStat" analitik agentliyi rusiyalı turistlərini yay səyahətləri üçün MDB ölkələrinin populyar şəhərlərinin reytinqini təqdim edib. AZƏRTAC xəbər verir ki, MDB şəhərlərinin reytinqi 2018-ci ilin yayında turist səfərlərinin populyarlığının təhlilinə əsasən tərtib edilib. Bakı, Minsk, Almatı, Astana, Bişkek, Daşkənd, Kişineu, Düşənbə və Aşxabad 2018-ci ilin yayında rusiyalı turistlərin MDB-də üz tutduqları şəhərlərin onluğunda yer alıb. Agentliyin məlumatına görə, turistlər MDB şəhərlərinə yayda orta hesabla ikigünlük gəlir, sonra Bakıda Xəzəryanı kurortlarda, Belarusda Naroç gölündə, Almatıda Çimbulaq dağ kurortunda, Qazaxıstanda Borovoye kurortunda, Qırğızıstanda İssık-Kul gölündə dincəlirlər. Rusiyalı turistlər MDB ölkələrinin şəhər və kurortlarında bir gün qalmağa və yeməyə orta hesabla 50-100 dollar məbləğində pul xərcləyirlər. Ən ucuz yay turları Kişineu və Bişkekdir, habelə həftəsonu və şopinq-turlar arasında Bakı və Astana liderlik edir.






# Naxçıvan islam mədəniyyətinə və bəşəri dəyərlərə töhfələr verir

***Qədim və zəngin tarixə malik Azərbaycan çoxəsrlik dövründə mədəniyyət və incəsənət nümunələri ilə dünyanın diqqətini üzərində cəmləşdirmişdir. Azərbaycanın elə bir bölgəsi və ərazisi yoxdur ki, oradakı abidələr ölkəmizin tarixindən xəbər verməsin. Qədimliyi ilə tarix yazan Naxçıvan maddi mədəniyyət abidələri ilə seçilir və minilliklərdən soraq verir. Naxçıvan həyatının canlı salnamələri tarixi abidələrin daş yaddaşına həkk olunub.***

Gəmiqaya, Fərhad Evi, Əshabi-Kəhf, Yusif ibn Küseyr Türbəsi, Möminə Xatun Türbəsi, Gülüstan Türbəsi, Xanəgah Türbəsi, Qazançi körpüsü, Naxçıvan Cümə məscidi, Qeysəriyyə, Şərq hamamı, Naxçıvan buzxanası və digərləri bu diyarın ifadəsidir. Qeyd edim ki, ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 1162 tarixi-mədəniyyət abidəsi mövcuddur. Bunlardan 58 abidə dünya əhəmiyyətli, 455 abidə ölkə, 649-u isə yerli əhəmiyyətlidir. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, “Naxçıvanqala”, “Nuh” Türbəsi, “Qarabağlar”, “Möminə xatın” türbələri, Əlincəqala və digər abidələrin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi baxımdan, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Məhz bu amillər İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş altıncı konfransında 2018-ci il üçün Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan olunmasını şərtləndirir. Həmin qərar Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür.

Müasir dünyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dini-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirdiyi və dünyaya dövlət-din münasibətlərinin tənzimlənməsi modelini təqdim etdiyi zamanda Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür: “Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub-yaşadılmasında özünəməxsus rol oynamışdır”.

Naxçıvan mədəniyyəti, tarixi Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirir. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub-yaşadılmasında özünəməxsus rol oynamışdır. Bu torpaqda dünya əhəmiyyətli abidələrin olması öz-özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir. Belə ki, özünün adı, ecazgar gözəlliyi ilə seçilən Gəmiqaya Azərbaycanın qədim mədəniyyət və incəsənət xəzinəsinə qızıl fond kimi daxil edilib. Gəmiqaya qayaüstü rəsmləri Qədim Naxçıvanın tunc və ilk dəmir dövrü əhalisinin bədii təfəkkürünü, estetik baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli tarixi mənbələrdir. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Gəmiqaya yaylaqlarının ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir. Adı Nuh əfsanəsi ilə bağlıdır. Yalçın, şiş qayalı, zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda nəhəng gəmiyə bənzəyir. Burada e. ə. 4-1-ci minilliklərə aid qayaüstü rəsmlər-piktoqramlar var. Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5-6 min il yaşı var. Tədqiqatlar nəticəsində orada yaşamış əhalinin həyat tərzini və mədəni inkişaf yollarını izləmək mümkündür. Gəmiqaya rəsmləri 1968-ci ildən öyrənilir. Tədqiqatlar nəticəsində Naxçıvanın qədim memarlığı üçün səciyyəvi olan dairəvi planlı yurd yerləri və qayaüstü təsvirlər aşkara çıxarılmışdır. Bu qədim təsviri sənət əsərlərinin böyük əksəriyyətini heyvan rəsmləri-keçi, öküz, maral, it, bəbir, canavar və s. təşkil edir. Heyvan rəsmləri bir qayda olaraq, tək-tək, qoşa və sürü halında təsvir olunmuşdur. Aşkar olunmuş rəsmlər arasında ovçuların ox və kamanla, kəməndlə və s. ilə silahlandığı ov və rəqs səhnələri diqqəti cəlb edir. Gəmiqayada çox maraqlı piktoqrafik səciyyəli rəmzi işarələr-dairələr, dördbucaqlı, üçbucaqlı, çərxi-fələk nişanı və s. həkk olunmuşdur. Bu cür işarələr Naxçıvanda I Kültəpənin e.ə. 2-ci minilliyə aid orta Tunc dövrü təbəqəsindən əldə edilmiş gil lövhə üzərində, boyalı qablar üzərində də cızılmışdır. Gəmiqaya petroqliflərinin analoji abidələrlə müqayisəli təhlili Azərbaycanın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında elmi nəticələr söyləməyə imkan verir və onların Qədim Azərbaycan təsviri sənətinin Naxçıvan mədəniyyətinə aid olduğunu göstərir.



Naxçıvan şəhərində tarix-memarlıq abidəsi olan Möminə Xatun Türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi kimi tarixdə əksini tapıb. Şərq memarlığı incilərindən biri olaraq 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilib. Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgizin arvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin Məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında “Atabəy Günbəzi” adı ilə qalmışdır. Abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılmışdır: “Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”.

Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəgiz, onun arvadı Möminə Xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının baş daşları vaxtilə oğurlanıb aparılmışdır. 2003-cü ildə Sərbadədə qiymətli daşdan nəfis şəkildə əsaslı bərpa işləri aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, zəngin tərtibata malikdir.

Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Məşhur incəsənət tarixçisi, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.V. Alpatov türbə haqqında yazır: “XII əsr Azərbaycan ustalarının Naxçıvanda yaratdığı Möminə Xatun Türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Möminə Xatun Türbəsi Şərqin ən gözəl klassik əsərləri-Firdovsinin “Şahnamə”si və Nizaminin “Leyli və Məcnun”u kimi əbədidir”. Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında da belə gözəl abidəyə rast gəlmək olmur. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir.

Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi olan Xan Sarayı Şərq memarlıq üslubunda tikilmişdir. Abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 1998-ci ilin aprelindən Naxçıvan Xalça Muzeyi kimi fəaliyyət göstərir. Muzey 8 zaldan ibarətdir. Bunlardan biri Naxçıvan xanlarına həsr olunmuşdur. Yaradıldığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların sayı 2000-dən artıqdır. Burada, demək olar, bütün xalça növlərinin və xalça məmulatlarının (məfrəş, heybə, xurcun, çuval, örkən və s.) nümunələri nümayiş etdirilir. Muzeydə Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz-Naxçıvan xalçaçılıq məktəblərinə XVIII-XIX əsrlərə aid xalça nümunələri saxlanılır. Çeşnilərinə görə “Qollu çiçi”, “Pirəbədil”, “Alpan”, “Qədim əfşan”, “Ovçuluq”, “Zili”, “Köhnə buta”, “Naxçıvan”, “Qasımuşağı” və s. xalçalarla yanaşı, süjetli xalçalar - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin portreti toxunmuş xalça (xalq rəssamı K.Əliyev), “Leyli və Məcnun”, “Qarabağ mənzərəsi”, “Boz qurdlar”, “Gəncə gözəli” və s. əhəmiyyətli yer tutur. Muzeydə məişət əşyaları - misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

Naxçıvanın bu və ya digər maddi-mədəniyyət nümunələri onun zəngin və qədim tarixindən dəyərli məlumatları təqdim edir.

***Zümrüd BAYRAMOVA***

# Bugünkü inkişaf edən Azərbaycan hər bir azərbaycanlının qorumalı olduğu sərvətdir

*Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sədaqət xanım, bildiyiniz kimi cənab Prezident İlham Əliyevin sədrliyi ilə bu yaxınlarda Nazirlər Kabinetinin bu ilin ilk yarısının yekunlarına dair iclası keçirildi. Həmin iclasda 6 ay ərzində ölkəmizin inkişafı, nailiyyətləri barədə ictimaiyyətə məlumatlar verildi. Bütövlükdə, siz son 6 ay ərzində Azərbaycanın əldə etdiyi uğurları, inkişaf göstəricilərini necə dəyərləndirərdiniz?***

- Ümumiyyətlə, cənab Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əldə edilən uğurlar və nailiyyətlər ilə yanaşı, nöqsanlar da nəzərə çatdırıldı. Eyni zamanda, Prezident İlham Əliyev bütün sahələrdə islahatların davam etdirilməsinin, daha da dərinləşməsinin vacibliyini vurğulayaraq Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün həlli vacib olan məsələlərlə bağlı da ciddi tapşırıqlar verdi.

Qeyd edim ki, ötən altı ay ərzində ölkədə müəyyən edilən strateji xəttə uyğun dayanıqlı iqtisadi inkişaf təmin olunub, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirilib, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, iqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətlənib, qeyri-neft ixracı artıb. Görülən işlərin nəticəsidir ki, valyuta ehtiyatlarımız 44,3 milyard dollara yüksəlib, ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub, ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2, qeyri-neft sənayesi 8,8, kənd təsərrüfatı 7,6 faiz artıb, inflyasiya cəmi 3 faiz təşkil edib, xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34, qeyri-neft ixracı 20 faiz artıb. Həmçinin, qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub, 611 sahibkara isə 100 milyon manat güzəştli kredit verilib.

Eləcə də Mingəçevirdə "ASAN Həyat" kompleksi açılıb, Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu fəaliyyətə başlayıb, 10 rayonda xalça emalatxanası açılıb, Sumqayıt Polipropilen zavodu açılıb və s. Məhz, yaradılan yeni-yeni müəssisələr hesabına yeni iş yerlərinin açılması, maaş və təqaüdlərin artırılması insanların rifah halının da yüksəlməsinə gətirib çıxarıb.

Bütün bunlarla yanaşı, ötən altı ay ərzində əldə olunan nailiyyətlər hesabına Azərbaycan dünyadakı geosiyasi və geoiqtisadi statusunu da möhkəmləndirib. Elə "Cənub qaz dəhlizi"nin açılışının olması, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi, TANAP-ın açılışının baş tutması, Bakıda təntənəli hərbi paradın keçirilməsi, aprel zəfərindən sonra Şərur rayonunun Günnüt kəndinin və əlavə olaraq 11 min hektardan çox ərazinin 26 ildən sonra işğaldan azad edilməsi deyilən fikrin əyani təsdiqidir.

Eyni zamanda hər bir ölkənin inkişafını göstərən əyani faktorlardan birini də beynəlxalq təşkilatların hesabatları, dəyərləndirmələri təşkil edir. Məhz, dünya ictimaiyyəti tərəfindən ciddi qəbul edilən beynəlxalq təşkilatların hazırladıqları hesabatlara əsasən Azərbaycan dünya miqyasında inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü, xalqın iqtidara dəstəyinə görə 20-ci, ümumi infrastrukturun inkişafına görə 26-cı, rəqabətqabiliyyətliliyinə görə 35-ci, yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir.

Göründüyü kimi, ölkəmizin inkişaf göstəricilərinin beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapması Azərbaycan həqiqətlərini bir daha dünyaya nümayiş etdirmiş olur. Bütün bunlarla yanaşı biz Azərbaycanın inkişafını həyatımızda da hiss edirik. Təkcə ölkəmizin son 15 il ərzində valyuta ehtiyatlarının 24, maaş və təqaüdlərin 8 dəfədən çox artması onu göstərir ki, ötən illər ərzində sosial-iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. Məhz, bütün bunlar Azərbaycan xalqının, dövlətinin nailiyyətləridir və bunu qorumaq hər bir azərbaycanlının müqəddəs borcudur. Bugünkü inkişaf edən Azərbaycan hər bir azərbaycanlının qorumalı olduğu sərvətdir.



Əlbəttə ki, Azərbaycan hökuməti bu uğurların davamlı olmasını əsas götürərək daha da inkişaf etmək, yeni-yeni uğurlara, nailiyyətlərə sahib olmaq üçün qarşıda duran başqa vəzifələri də ardıcıl olaraq reallaşdıracaqdır. Bu mənada, təkcə bu ilin sonunadək 137 modul tipli məktəbin tikilməsi, 20 min məcburi köçkünün yeni evlərlə təmin edilməsi, 2 "ASAN xidmət" mərkəzinin açılması, 2 şəhərdə olimpiya idman mərkəzlərinin istifadəyə verilməsi, "SOCAR Polymer" və gübrə zavodlarının açılışının nəzərdə tutulması, Masallı sənaye məhəlləsinin fəaliyyətə başlaması, 14 aqroparkın istifadəyə verilməsi, üçüncü peykimizin orbitə buraxılması və s. nəzərdə tutulur.

***- Hər bir ölkənin sosial-iqtisadi inkişafı ilə yanaşı siyasi-ictimai sabitliyinin qorunub saxlanılması da mühüm şərtdir. Bu gün dünya ölkələrində baş verən hadisələrin fonunda əminliklə deyə bilərik ki, Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. Sizcə, bu sabitliyin və dinamik inkişafın qorunub saxlanılmasının əsas səbəbləri və şərtləri nələrdir?***

- Bu gün hər kəs anlayır ki, Azərbaycan dövlətinin və xalqının uğurlarına sevinən dostlarımız, müttəfiqlərimiz olduğu halda, inkişafımıza kölgə salmağa çalışan xarici və daxili qərəzli qüvvələr də var. Həmin qərəzli dairələr erməni lobbisinin və radikal dini qruplaşmaların təsiri altında olan dairələrdir və onlar hər vəchlə çalışırlar ki, Azərbaycanın demokratik imicinə xələl gətirsinlər, ölkəmizin, xalqımızın mənafelərinə zərbələr vursunlar. Xüsusilə də, mühüm siyasi, yaxud ictimai-mədəni tədbirlər ərəfəsində fəallaşan anti-Azərbaycan qüvvələri şər, böhtan, reallığı əks etdirməyən fikirlərlə, müxtəlif təxribatlarla ictimaiyyəti çaşdırmağa çalışırlar.

Lakin bütün bunlara baxmayaraq, bu cəhdlər nəticəsiz qalır. Çünki, Azərbaycanda xalq-iqtidar birliyi güclüdür, xalq hakimiyyəti dəstəkləyir və müdafiə edir, bundan sonra da belə olacaq. Azərbaycanda xaos yaratmağa cəhd edənlər birdəfəlik anlamalıdırlar ki, çox çətin sınaqlardan qətiyyətlə çıxmış xalq-iqtidar birliyini sarsıtmaq mümkün deyildir. Çünki Azərbaycan xalqı xaosu, özbaşınalığı, dağıdıcılığı hələ 1992-ci ildə AXC-Müsavat hakimiyyəti illərində görüb. Amma xüsusi məqam kimi qeyd edilməlidir ki, Azərbaycan xalqı hər zaman anti-Azərbaycan qüvvələrinin təxribatlarına getməyib, iqtidarla birliyini nümayiş etdirib, ictimai-siyasi sabitliyi qoruyub. Bu mənada əminliklə deyə bilərəm ki, Azərbaycanda ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dinamik inkişafın qarantı xalq-iqtidar birliyidir, vətəndaşlarımızın Prezident İlham Əliyevə olan sevgisi, dəstəyidir.

***- Sədaqət xanım, aprel zəfərindən sonra Şərur rayonunun Günnüt kəndinin və əlavə olaraq 11 min hektardan çox ərazinin 26 ildən sonra işğaldan azad edilməsi haqqında danışdınız. Bu prizmadan çıxış edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən proseslər haqqında nə deyə bilərsiniz?***

- Bu gün Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi hökm sürür. Çünki 2016-cı ilin aprel ayında erməni kəşfiyyat-diversiya qruplarının xəyanətkarcasına etdiyi basqınların qarşısını alan, hətta onları ağır itki verərək geri çəkilməyə məcbur edən və strateji yüksəklikləri geri alan ordumuz 2018-ci ildə Şərur rayonunun Günnüt kəndini və əlavə olaraq 11 min hektardan çox ərazini 26 ildən sonra işğaldan azad etməsi, həmçinin Bakıda keçirilən möhtəşəm hərbi parad bir daha onu isbatladı ki, Azərbaycan artıq 1992-ci ildə olduğu kimi rəhbərsiz və ordusuz deyil.

Azərbaycan bütün hərbi imkanlara, ən əsası isə xalq-ordu-Ali Baş Komandan birliyinə, istənilən hərbi əməliyyatı reallaşdıra biləcək gücə, qüvvəyə malikdir. Xalq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə inanır və güvənir. Ona görə də, tam əminliklə deyə bilərəm ki, Ermənistan yenidən münaqişənin həlli prosesini dalana dirəyərsə, qeyri-konstruktivlik nümayiş etdirərsə, o zaman Ali Baş Komandanımızın torpaqlarımızın işğaldan azad edilməsi üçün hərbi əməliyyatların keçirilməsi barədə əmr verdiyi andan milli-etnik, dini mənsubiyyətindən, sosial statusundan asılı olmayaraq, hər bir azərbaycanlı döyüşə gedəcək, işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad edəcək.

Cənab Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Başqa cür də mümkün deyildir. Çünki Azərbaycan heç bir halda imkan verməyəcək ki, ərazisində ikinci erməni dövləti yaradılsın.

O da bəllidir ki, bu gün Ermənistan Azərbaycan qarşısında şərt irəli sürə biləcək vəziyyətdə deyildir. Ermənistan Robert Köçəryanın, Serj Sarkisyanın qeyri-konstruktiv mövqeyi və təcavüzkar siyasəti nəticəsində bütün regional layihələrdən kənarda qaldı, təcrid vəziyyətində yaşadı və reallıq budur ki, hər il bu ölkəni on minlərlə insan birdəfəlik tərk edir. Sosial-iqtisadi vəziyyəti həddindən artıq ağır olan Ermənistan hərbi sahədə də Azərbaycan qarşısında duruş gətirə bilmir. Elə 2016-cı ilin aprel döyüşləri zamanı həm Ermənistan dövləti, həm də sadə ermənilər gördülər ki, Azərbaycan istənilən an müharibə ilə torpaqlarını işğaldan azad edə bilər. Lakin Azərbaycan dövləti regional inkişafa və sabitliyə xələl gəlməsin deyə, hələ ki, sülh variantına üstünlük verir. Ona görə də, Ermənistan, başda Paşinyan olmaqla bundan səmərəli istifadə etməli, heç bir şərt irəli sürmədən danışıqlar masasına əyləşməlidir. Əks təqdirdə Paşinyanı Sarkisyandan da pis aqibət gözləyə bilər. Bu səbəbdən də, Paşinyan dərisi boğazından çıxarılmış qardaşından dərs almalıdır.

***- Sədaqət xanım, təmsil olunduğunuz Azərbaycan Respublikası Milli Məclisi Ailə, qadın və uşaq komitəsi bu ilin ötən dövründə hansı işləri həyata keçirdi. Ümumiyyətlə, Komitə hansı tədbirlərlə, qanunvericilik fəaliyyətilə yadda qaldı?***

- Öncə onu qeyd edim ki, cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olan qadınlarımız tarixin bütün dövrlərində öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə ölkəmizin həyatında, xalqımızın milli mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıblar.

Hələ 1969-cu ildən ölkəmizə rəhbərlik etməyə başlayan Ulu öndər Heydər Əliyev qadın azadlığına və onların bütün sahələrdə irəli çəkilməsinə xüsusi diqqət ayırırdı. 1993-cü ildə Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra da bu sahədə ciddi dönüş yarandı. Ulu öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən cənab Prezident İlham Əliyev dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin etdi. Onun rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı. 2006-cı ildə Azərbaycanın qanunverici orqanında gender bərabərliyi haqqında qanun, 2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edildi. Eyni zamanda, Azərbaycan qadını ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayır. Bu, son bələdiyyə və parlament seçkilərində bir daha özünü qabarıq şəkildə göstərdi. Elə Milli Məclisdə Ailə, qadın və uşaq komitəsinin yaradılması da dövlətin bu sahəyə ayırdığı diqqətin nəticəsi idi.

Ailə, qadın və uşaq məsələləri üzrə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitə olan Ailə, qadın və uşaq məsələləri komitəsi ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq, qadın və uşaq hüquqlarının müdafiəsi və həyata keçirilməsi, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığı ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir. Məsələn, Komitə bu günə qədər "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyalardan qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və başqa Azərbaycan Respublikasının Qanunlarında, həmçinin, Ailə Məcəlləsində dəyişikliklər edilməsi barədə layihələri müzakirə və plenar iclasa tövsiyə edib.

Bununla yanaşı, Ailə, qadın və uşaq komitəsi mühüm əhəmiyyət kəsb edən problemlərlə əlaqədar ictimai dinləmələr təşkil edir, cəmiyyəti narahat edən məsələlərə diqqət çəkir. Həmçinin, Komitənin hazırladığı qanun layihələri və tədbirlərlə əlaqədar aidiyyəti dövlət orqanları, yerli və beynəlxalq QHT-lərlə birlikdə dinləmələr keçirir, Ailə, Qadın və Uşaq hüquqları ilə bağlı müxtəlif qanun layihələrinə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı aidiyyəti komitələrlə müzakirələr təşkil edir. Elə il ərzində uşaqların müdafiəsi, sağlam ailə, sağlam cəmiyyət, vərəmlə mübarizə sahələrinə dair birgə təbirlərin və ictimai dinləmələrin keçirilməsi dediklərimizə əyani sübutdur.

Bir sözlə, Milli Məclisin Ailə, qadın və uşaq komitəsi sözügedən sahədə mövcud olan problemlərin həll edilməsi üçün dövlət siyasətinin reallaşdırılması istiqamətində əhəmiyyətli addımlar atır və bundan sonra da bu işə töhfələr verməkdə davam edəcək.

# Nazirlər Kabinetinin iclasında: Prezident İlham Əliyevin tarixi mesajları

***İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Tədbirdə dövlət başçısı əhatəli nitq söyləyib. İlham Əliyev 2018-ci ilin altı ayı ərzində görülən işləri ətraflı təhlil edib və ondan çıxarılan nəticələri vurğulayıb.***

Ölkə rəhbəri keçən müddətdə Azərbaycanın daxilində, rəsmi Bakının yeritdiyi xarici siyasətdə və beynəlxalq aləmdə cərəyan edən geosiyasi hadisələrin məzmununda baş verən dəyişikliklərdən bəhs edib. İfadə edilən fikirlərdən aydın olur ki, son altı ay müddətində daxili və xarici siyasətdə yaddaqalan, dövlət quruculuğu baxımından əhəmiyyəti olan hadisələr baş verib. Bununla yanaşı, xarici siyasətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da yüksəlib. Dünyanın böyük dövlətləri ilə əməkdaşlıq sahəsində uğurlar əldə edilib. Seçkidən sonra Azərbaycan Prezidentinə ünvanlanan məktublarda onunla əməkdaşlıq arzusu ifadə olunub. Bunun fonunda Ermənistanın düşdüyü acınacaqlı vəziyyəti də İlham Əliyev dolğun təhlil edib. Bu kimi məqamların üzərində geniş dayanmağa ehtiyac görürük.




## Müstəqilliyin şərtləri: daxili və xarici faktorların vəhdəti

İstənilən müstəqil dövlətin fəaliyyətinə geniş kontekstdə baxmaq lazım gəlir. İndi təcrid olunmuş heç bir ölkə uğur qazana bilməz. Təcrübə göstərir ki, ən qüdrətli dövlət belə digərləri ilə qarşılıqlı əlaqələrin məzmunundan çox asılıdır. Bunlara regional özəllikləri də əlavə etmək gərəkdir. Çünki bu faktor faktiki olaraq ölkənin geosiyasi statusunun formalaşmasında ciddi rol oynayır. Məsələn, Cənubi Qafqazın region kimi geosiyasi aspektdə öz xüsusiyyətləri mövcuddur və onları nəzərə almadan bu coğrafiyada mövcud olan dövlətləri xarakterizə etmək imkansızdır. Buraya iqtisadi, mədəni, siyasi, energetik və s. xüsusiyyətlərlə yanaşı, müstəqil dövlətçiliyin baş tutub-tutmaması məsələsi də daxildir.

Nəhayət, müasir mərhələdə müstəqil dövlətçilik yerli hakimiyyətin seçdiyi siyasi kursdan birbaşa asılıdır. Yuxarıda vurğuladığımız faktorlar nə qədər əhəmiyyətli rol oynasa da, dövlət quruculuğu kursunun məzmunu həlledicidir. Cənubi Qafqazın üç ölkəsinin timsalında bu tezisin doğruluğunu tam sübut etmək mümkündür.

Məsələnin bu tərəfinə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ifadə edilən fikirləri işığında nəzər saldıqda, siyasi və geosiyasi baxımdan daha maraqlı məqamları görə bilərik. Dövlət başçısının tədbirdə söylədiyi geniş məzmunlu dərin nitqində həm müstəqil dövlətçiliyin inkişafı, həm də dövlətlərarası münasibətlərin aktual aspektləri ifadə olunub. Xüsusilə Ermənistanın düşdüyü indiki vəziyyətin səbəbləri dəqiq göstərilib. Bunun fonunda Azərbaycanda uğurlu müstəqil dövlət quruculuğunun mühüm məqamları göstərilib (bax: Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib / AZƏRTAC, 9 iyul 2018).

2018-ci ilin ilk altı ayı ərzində görülən işləri ümumiləşdirərək İlham Əliyev vurğulayıb: "Deyə bilərəm ki, ilin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir" (bax: əvvəlki mənbəyə). Burada ölkə rəhbəri dövlətin fəaliyyətində dörd mühüm aspekti yığcam ifadə edib.

## Dövlət quruculuğu: 2018-ci ildən baxış

Birincisi, dövlət olaraq keçən altı ay ərzində qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilib. Bu, o deməkdir ki, hakimiyyətin bütün qanadları səmərəli fəaliyyət göstərib. Öz növbəsində həmin məqam dövlətin idarəetmə mexanizmlərinin dəqiq işlədiyini ifadə edir. Məlumdur ki, dövlət orqanlarının funksionallığı müstəqil dövlət quruculuğunun çox mühüm şərtidir. Bu, ödənilmədən hər hansı işlək idarəetmədən bəhs etmək imkansızdır. Məsələn, hətta böyük dövlətlərdə müşahidə olunur ki, Prezidentin tapşırıqlarının yalnız kiçik bir faizi icra edilir. Azərbaycanda isə 2018-ci ilin ilk altı ayının nəticələri göstərir ki, həmin göstərici yüksəkdir.

İkincisi, Azərbaycan ötən altı ayda bütün vəzifələri özünün dinamik inkişaf tempini saxlamaqla reallaşdırıb. İnkişaf templərini saxlamaq da vacib faktordur. Çünki indi dünya dövlətləri davamlı inkişafın təmin edilməsini aktual problem kimi qəbul edirlər. Onu da nəzərə alaq ki, uzun illərdir Azərbaycanda inkişaf tempi qorunub saxlanılır. Bu prosesin 2018-ci ilin ilk altı ayında da davam etməsi inkişaf modelinin səmərəli olduğunu təsdiqləyir.

Üçüncüsü, Azərbaycan həmin müddətdə daxili siyasətdə, iqtisadiyyatda uğurlar əldə edib. Hər şeydən öncə, göstəricilər onu ifadə edir ki, əvvəlki illərdə aparılan islahatlarla bu il aparılan islahatlar bir-birini üzvi şəkildə tamamlayır. İllərdir ki, bu ənənə qorunur, kənara çıxmalar müşahidə edilmir. Konkret rəqəmlərə nəzər salaq. İlk altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artıb, qeyri-neft sektorunda artım 2 faiz olub, qeyri-neft sənayesi 8,8 faiz artıb. Kənd təsərrüfatı sahəsində artım 7,6 faiz olub. Bitkiçilik isə 14 faiz artıb. İnformasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artıma nail olunub.

Dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat, xərcləri isə 9,5 milyard manat təşkil edib. Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub. Bu rəqəm 2017-ci ilin eyni dövrü ilə müqayisədə 275 milyon manat və ya 7,3 faiz çoxdur. Əhalinin gəlirləri 9,3 faiz artıb. Bu, inflyasiyanı 6,3 faiz üstələmək deməkdir. Orta aylıq əməkhaqqı illik müqayisədə 4 faiz yüksəlib. Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə isə 69 faiz artıb (bax: əvvəlki mənbəyə).

İlk altı ayda 67 min iş yeri açılıb. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya cəmi 3 faiz təşkil edib. Xarici ticarət dövriyyəsi 35 faiz artıb. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artıb. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollar olub. Bu gün ölkənin valyuta ehtiyatları 44,3 milyard dollar təşkil edir (bax: əvvəlki mənbəyə).

Digər rəqəmləri də göstərmək olar. Lakin yuxarıda vurğulananlar da görülən işlərin səmərəliliyini, aparılan siyasətin uğurlu olmasını, həyata keçirilən proqramların keyfiyyətli olmasını kifayət qədər təsdiq edir. Onu da nəzərə alaq ki, bu nailiyyətlər bütövlükdə dünyada iqtisadi-maliyyə və geosiyasi böhranın davam etməsi fonunda əldə edilib. Deməli, Azərbaycan rəhbərliyi mövcud vəziyyəti hərtərəfli və dərindən analiz edib, dəqiq düşünülmüş kurs müəyyənləşdirib. Bu proses nəqliyyat və energetika sahələrində də müşahidə edilib. Dövlət başçısı həmin kontekstdə nitqində vurğulayıb: "May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilmişdir. Bu, çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir. Ələt limanı indi uğurla fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün bu limanın çox böyük əhəmiyyəti var" (bax: əvvəlki mənbəyə).

Deməli, bu ilin ilk altı ayı Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi istiqamətində atılan addımlar baxımından da əhəmiyyətli olub. Ölkənin geosiyasi-iqtisadi mövqeyinin möhkəmlənməsi aspektində bunun böyük əhəmiyyəti olduğunu dərk etmək gərəkdir. Xüsusilə, "Yeni İpək Yolu" layihəsi çərçivəsində həmin faktorun vacibliyinə şübhə yoxdur.

Dövlət başçısı ilk altı ay üçün digər tarixi hadisə kimi Cənub Qaz Dəhlizinin reallaşması istiqamətində atılan addımları vurğulayıb. İlham Əliyev ifadə edib: "May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihəsi. Dördüncü layihə - TAP qrafik üzrə icra edilir" (bax: əvvəlki mənbəyə). Söhbət beynəlxalq əhəmiyyətli nəhəng enerji layihəsindən gedir. İki ay ərzində bu proyektin reallaşması istiqamətində mühüm addımlar atılıb. TANAP-ın rəsmi açılışına dünyanın böyük dövlətləri də reaksiya verib. ABŞ, Almaniya, Fransa, Böyük Britaniya və Rusiya bu layihəni alqışlayıblar. Deməli, 2018-ci ilin may və iyun ayları Azərbaycanın enerji siyasətinin növbəti təntənəsi zamanı kimi yaddaşlarda qalacaq.

Bu bağlılıqda onu vurğulayaq ki, Cənub Qaz Dəhlizinin reallaşması bütövlükdə dünyanın enerji təhlükəsizliyi üçün çox əhəmiyyətli hadisədir. Azərbaycanın enerji siyasətinin beynəlxalq aləm üçün əhəmiyyəti bu aspektdə bir daha özünü göstərmiş olur. 2018-ci ildə bu sahədə vacib uğurların əldə edilməsi, təbii ki, sevindiricidir. Məsələnin bu aspektinin Azərbaycanın xarici siyasətdə əldə etdiyi nailiyyətlərin işığında da xüsusi əhəmiyyət daşıdığı aydın görünür. Dördüncüsü, 2018-ci ilin altı ayı ərzində Azərbaycan beynəlxalq siyasətdə də böyük uğurlar əldə edib. Bu sferada uzun illərdir aparılan siyasət davamlı olaraq reallaşıb. Ayrıca, 2018-ci ildə xarici siyasətin səmərəliliyinə ciddi təsir edən bir məqamı vurğulamaq gərəkdir. Dövlət başçısı nitqində həmin məqama xüsusi diqqət yetirib. İlham Əliyev vurğulayıb: "Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq" (bax: əvvəlki mənbəyə).

Məlumdur ki, müasir dövrdə hakimiyyətin legitimliyini müəyyənləşdirən vacib faktorlardan biri seçkidir. Əgər seçkidə siyasi lider uğur əldə edirsə və xalq onu dəstəklədiyini birmənalı öz səsi ilə təsdiqləyirsə, həmin iqtidara beynəlxalq inam yüksək olur. Azərbaycan xalqı İlham Əliyevə yüksək etimad göstərdi və dünyaya nümayiş etdirdi ki, öz liderinin arxasındadır, ona inanır və birlikdə irəli getməkdə qərarlıdır. Bu, xarici siyasətdə nailiyyətlər əldə etmək üçün zəruri bir faktordur.

Onu demək gərəkdir ki, seçkidən əvvəl keçirilmiş "exit-poll"lar rəsmi nəticələrin tam əsaslı olduğunu göstərir. Konkret deyilsə, seçkidə Azərbaycan cəmiyyətinin iradəsi tam öz əksini tapdı. Ona heç kimsə təsir göstərə bilmədi, yəni xalqın seçki mədəniyyəti kifayət qədər yüksəkdir. Azərbaycan xalqı siyasi cəhətdən yetkin və ayıq-sayıqdır. Bu xalqı məğlub etmək mümkün deyil. "Seçkilər şəffaf, ədalətli şəkildə keçirilmişdir və Azərbaycan bütün dünyaya bir daha göstərmişdir ki, müasir, demokratik ölkədir. O ölkədir ki, burada bütün azadlıqlar təmin edilir" (bax: əvvəlki mənbəyə).

Bütün bunlara görə təsadüfi deyildir ki, seçkidən sonra bir çox ölkələrin, ilk növbədə böyük

# Nazirlər Kabinetinin iclasında: Prezident İlham Əliyevin tarixi mesajları

dövlətlərin başçıları İlham Əliyevə təbrik məktubları göndərdilər, eyni zamanda, əməkdaşlıq təklifləri etdilər. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Türkiyə, Rusiya və Çin kimi dövlətlərin rəhbərləri geniş əməkdaşlıq təkliflərini ifadə etdilər. Bu, təbii ki, çox sevindiricidir və ciddi siyasi nailiyyətdir. Xarici dövlətlər görürlər ki, Azərbaycan cəmiyyəti İlham Əliyev iqtidarını tam dəstəkləyir və daim arxasında dayanıb. Deməli, "...beynəlxalq birlik Azərbaycana böyük hörmətlə, böyük inamla yanaşır və Azərbaycanda gedən demokratik proseslər dünya birliyi, dünyanın aparıcı dövlətləri tərəfindən yüksək qiymətləndirilir" (bax: əvvəlki mənbəyə).

Bununla əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də Azərbaycanın beynəlxalq nüfuzu daha da möhkəmlənib və bu müstəqil dövlətə böyük hörmət göstərilir. Dövlət quruculuğu və suverenliyin təmini baxımından, əlbəttə, bu, olduqca əhəmiyyətli faktordur. Onun ilk növbədə xarici siyasətin məzmununa ciddi təsir etdiyini dərk etmək vacibdir. Eyni zamanda, bir sıra dairələrin Azərbaycandakı seçkiyə kölgə salmaq cəhdlərinin səbəbləri aydın olur. Onlar xaricdə kök salıblar, lakin daxildə də qulluq edənləri mövcuddur. Məhz daxildəki əmrə müntəzir olanların əli ilə seçkinin nəticələrinə şübhə yaratmağa çalışırlar.

## Xarici siyasətin uğurları: bütün istiqamətlərdə nailiyyətlər

Xaricdəki bədnam dairələr görürlər ki, Azərbaycan daim inkişaf edir, demokratiya yolunda inamla addımlayır. Bunun fonunda təcavüzkar Ermənistanın cılız və antidemokratik vassal ölkə imici yaranır. Artıq dünyada belə bir imicin olduğuna şübhə edən yoxdur. Bunu hətta Rusiya siyasətçiləri, analitikləri və ekspertləri də etiraf edirlər.

Məsələn, Aleksandr Dugin açıq bəyan edib ki, Ermənistan Yeltsin Rusiyasının və başqa dövlətlərin aktiv dəstəyi ilə Azərbaycan torpaqlarını işğal edib və indi buranı qeyd-şərtsiz tərk etməlidir. Bu, dolayısı ilə illərdir ki, müəyyən dairələrin Ermənistanın müstəqil olması, demokratik ölkəyə çevrilməsi və güclü orduya sahib olması haqqında yaradılan mifləri darmadağın etmək deməkdir. Təsəvvür edin ki, belə bir proses Azərbaycanın hərtərəfli inkişaf etməsi fonunda baş verir. Adi şüur belə bu müqayisədən uyğun nəticə çıxara bilər.

Deyək ki, informasiya savaşında Azərbaycanın hər addımda Ermənistanı üstələməsinin səbəbi aydın olur. Öz gücünü cəmiyyətdən alan, müstəqil xarici siyasət yeridən və sosial-iqtisadi sahədə dalbadal uğurlu layihələr həyata keçirən Azərbaycanla uğursuz Ermənistan necə rəqabət apara bilər? İrəvanın hansı arqumentləri var? Ciddi düşünən insanlar üçün onların heç bir tutarlı faktı və ədalətli mövqeyi yoxdur. Buna görə də Azərbaycanın haqq səsi getdikcə daha aydın eşidilməkdədir. Dünya ictimaiyyəti Bakını daha çox dəstəkləyir və onun əsl müstəqil dövlət olduğuna əmin olur. Bütün bunlara görə də, Prezident İlham Əliyev aşağıdakı fikirləri ifadə etməkdə tam haqlıdır: "...xalq bizim siyasətimizə alternativ siyasət görmür, onu qəbul etmir və bundan sonra da xalq bizim siyasətimizi dəstəkləyəcək. Bizim siyasətimiz isə xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir" (bax: əvvəlki mənbəyə).

Bunlar onu deməyə əsas verir ki, bu ilin altı ayında Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilib. Qonşu dövlətlərlə dostluq, strateji tərəfdaşlıq əlaqələri yeni səviyyəyə yüksəlib. Prezident İlham Əliyev altı ayda qonşu ölkələrin dövlət və hökumət başçıları ilə görüşlər keçirib. Bundan başqa, Azərbaycan müsəlman aləmində çox böyük hörmətə və nüfuza malik olan ölkəyə çevrilib. 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması bu əlaqələri daha da möhkəmləndirdi.

Azərbaycan Avropa İttifaqı ilə yeni saziş üzərində işləyir. Bütövlükdə Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir. Təsadüfi deyil ki, "Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər vardır" (bax: əvvəlki mənbəyə). Bu aspektdə iyun ayında Brüsseldə Aİ ilə Azərbaycan arasında əməkdaşlıq prioritetləri ilə bağlı yeni sənədin imzalanması ayrıca əhəmiyyət daşıyır. Burada geosiyasi baxımdan böyük əhəmiyyəti olan və Azərbaycanın xarici siyasətinin mühüm cəhətini ifadə edən bir özəlliyi vurğulamaq istərdik.

Məsələ ondan ibarətdir ki, Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi dinamikaya malik məkanda yerləşən ölkələrin xarici siyasəti zərgər dəqiqliyi ilə işlənməlidir ki, böyük dövlətlərlə ixtilaflar yaranmasın. Gürcüstan və Ermənistan buna nail ola bilmirlər. Ermənistan daha çox özünün yarıtmaz və ziddiyyətli siyasətinin girovuna çevrilib. Bu forpost ölkə gah Rusiyanın, gah da Qərbin qəzəbinə tuş gəlir. Deyək ki, S.Sarkisyan Avrasiya İqtisadi İttifaqına (Aİİ) daxil olmaqla bağlı qərar verəndə, Brüssel çox qəzəbləndi. Rəsmi İrəvanın heç bir izahatı qəbul edilmədi və xəbərdarlıq aldı ki, "bir əldə iki qarpız tutub, iki stulda eyni zamanda oturmaq xəyalına düşməsin". İndi də N.Paşinyan Moskva ilə Vaşinqton arasında vurnuxur, lakin onların heç biri ona inanmır. Əksinə, gah bu, gah da digər tərəf xəbərdarlıq edir ki, mövqeyini dəqiqləşdirsin. Maraqlıdır ki, "küçə demokratı" hər iki tərəfə vəd verməyə çalışır. Proseslər göstərir ki, bu primitiv erməni siyasətçisinin ibtidai diplomatik manevrləri yalnız gülüş doğurur.

Rəsmi Tbilisi də tam olaraq reallığa uyğun geosiyasi mövqe seçə bilmir. Son olaraq, Brüsseldə D.Tramp gürcü liderlərə anlatdı ki, Qərbə inteqrasiya incə yanaşma tələb edir. Gürcüstan çoxlu sayda tələbləri yerinə yetirməldir ki, məsələn, NATO-ya üzv ola bilsin. Bununla yanaşı, Rusiya faktorunu da qətiyyən unutmamalıdır. Moskva Cənubi Qafqaza böyük təsir imkanlarına malikdir və onunla razılaşdırılmamış heç bir prinsipial geosiyasi addım tam reallaşa bilməz. Bununla Tbilisi də hazırda odla su arasında qalmış kimi görünür. Məhz bu reallığın fonunda Azərbaycanın Aİ ilə əlaqələrini zərgər dəqiqliyi ilə inkişaf etdirməsi çox əhəmiyyətlidir. Rəsmi Bakı özü əməkdaşlıq planı təklif etdi. Assosiativ üzvlüyün yarada biləcəyi təhlükələri açıq ifadə etdi. Nəticədə, Brüssel Bakı ilə özəl plan əsasında əlaqələri inkişaf etdirmək və ona strateji tərəfdaşlıq xarakteri vermək qərarına gəldi. Budur, artıq Brüsseldə məhz bu istiqamətdə konkret sənəd imzalandı. Və buna böyük dövlətlərin reaksiyası necə oldu?

Çox sakit və təmkinli. Çünki Azərbaycan elə əməkdaşlıq formatı seçir ki, kimsənin maraqlarına zərər gəlmir. Bunu Rusiya, Çin, İran, Türkiyə istiqamətlərində olduğu kimi, Avropa və ABŞ istiqamətlərində də aydın görürük. Buna görədir ki, Brüsseldə imzalanan sənədlərə başqa böyük geosiyasi qüvvələr anlayışla yanaşırlar. Bu aspektdə ekspertlər Rusiya Prezidenti V.Putinin TANAP-ın açılışı ilə bağlı verdiyi bəyanatın müsbət tonuna hətta müəyyən dərəcədə təəccüb etdilər. Əslində isə bu, normal haldır və Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin bariz nümunələrindən biridir.

Həmin kontekstdə biz Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı nitqində ifadə etdiyi bir fikri vurğulamaq istərdik. Dövlət başçısı bəyan edib: "Deyə bilərəm ki, bu ilin birinci yarısında Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimiz yeni mərhələyə qalxmışdır. Amerika Prezidenti cənab Donald Tramp aprel-may aylarında mənə üç məktub ünvanlamışdır. Seçkilərlə, ondan sonra Xalq Cümhuriyyətinin 100 illiyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə bağlı göndərilən məktublar Amerika hökumətinin Azərbaycana olan münasibətini, hörmətini göstərir. Məktublarda çox dəyərli sözlər ifadə edilmişdir və biz çox şadıq ki, bu gün Amerika-Azərbaycan əlaqələri öz əsl mahiyyətini əks etdirir. Əminəm ki, gələcək illərdə bu əlaqələr daha da möhkəmlənəcək" (bax: əvvəlki mənbəyə).

Bütün bunların əsasında dövlət başçısı 2018-ci ilin ilk altı ayında xarici siyasət sahəsində atılan addımlara ümumi qiymət verib. İlham Əliyev vurğulayıb: "Beləliklə, apardığımız uğurlu xarici siyasət nəticəsində Azərbaycan demək olar ki, bütün ölkələrlə, bütün güc mərkəzləri ilə çox səmərəli, işgüzar, bərabərhüquqlu münasibətlər qura bilmişdir. Bu münasibətlər qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur. Beləliklə, ölkəmizin uğurlu inkişafı üçün çox gözəl beynəlxalq mühit mövcuddur. Deyə bilərəm ki, bu mühiti biz yaratmışıq. Əminəm ki, bundan sonra da bu istiqamətdə ardıcıl siyasət aparacağıq" (bax: əvvəlki mənbəyə).

Bu fikirlərində də Prezident xarici siyasətin xarakteristikası üçün əhəmiyyəti olan bir sıra məqamları vurğulayıb. Öncə, deyək ki, Azərbaycan həm ayrı-ayrı ölkələrlə, həm də bütün güc mərkəzləri ilə faydalı münasibətlər qurmağa nail olub. Digər məqam ondan ibarətdir ki, bu münasibətlər konkret olaraq qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsiplərinə söykənir. Nəhayət, bunların nəticəsində Azərbaycanın uğurlu inkişafı üçün çox gözəl beynəlxalq mühit yaranıb. Yəni Azərbaycanın xarici siyasətinin düzgünlüyü nəticəsində onun üçün səmərəli olan beynəlxalq mühit formalaşıb. Bunu rəsmi Bakı gərgin və səmərəli fəaliyyəti ilə qazanıb. Məsələnin bu tərəfinin başqa məqamlarla yanaşı, Ermənistanın hazırkı geosiyasi durumu baxımından da ciddi əhəmiyyəti var.

## Azərbaycanın inkişafı fonunda: Ermənistan dövlətçiliyinin iflası

Prezident İlham Əliyev bu bağlılıqda ifadə edib: "Bu müsbət fonda baxın görün Ermənistanda nələr baş verir. 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?!" (bax: əvvəlki mənbəyə). Xarici siyasəti müqayisə etmək üçün lazım olan həqiqət anı bundan ibarətdir.

Ermənistan 26 ildir ki, kağız üzərində müstəqildir və orada guya dövlət quruculuğu prosesi gedirmiş. Əslində isə son 20 ildə erməni hakimiyyətinin başında duran adamın mürəkkəb korrupsiya və oğru sistemi yaratdığını ermənilərin özləri etiraf etməyə başladılar. Bəs onda hansı mənada "Ermənistan müstəqil dövlətdir" deyə bilərik? Yalnız formal olaraq. Siyasi, iqtisadi, geosiyasi və hərbi aspektlərdə Ermənistan Rusiyanın forpostudur. Mənəvi, əxlaqi və mədəni olaraq da korrupsiya və oğru sistemin buxovlarında çırpınan zavallı toplumdur. Orada müstəqil dövlətçiliyin baş tutmadığını əminliklə demək olar.

Bütün bunlara görə, Azərbaycan Prezidentinin çıxardığı nəticə reallığı tam əks etdirir. Ölkə rəhbəri həmin nitqində sözlərinə davam edərək ifadə edib: "Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir. Haqq-ədalət öz yerini tapdı və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovuldu" (bax: əvvəlki mənbəyə). Dövlətçiliyi iflasa uğramış bir ölkənin xarici siyasəti ola bilərmi? Mümkün deyil - o, yalnız sistemsiz və düşüncəsiz addımlar ata bilər ki, bunları da biz müşahidə edirik!

Azərbaycan rəhbəri bu kontekstdə bir həqiqəti də dilə gətirib. Prezident vurğulayıb ki, Ermənistandakı rejimin çökməsində Azərbaycanın da rolu olub. Bunu ölkə rəhbərliyi şişirtmək istəmir, öz adına çıxmaq fikrində deyil. Ancaq o da həqiqətdir ki, rəsmi Bakının apardığı "siyasət nəticəsində Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edildi". Azərbaycan təcrid siyasətini uğurla aparıb. Bu barədə İlham Əliyev açıq, birbaşa və heç kimsədən çəkinmədən dəfələrlə Azərbaycan ictimaiyyətinə və xarici tərəfdaşlara deyib. Hər kəs bilməlidir ki, nə qədər "torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq". Bu siyasət Ermənistanı iqtisadi iflasa uğradıb, onun inkişaf perspektivləri demək olar ki, yoxdur. Bu ölkəyə sərmayə qoyan tapılmır. Ayrıca, orada demoqrafik vəziyyət acınacaqlı olaraq qalır. Rəsmi İrəvanın özü etiraf edir ki, hər il minimum 50-60 min insan Ermənistandan köçür (bax: əvvəlki mənbəyə).

Yuxarıda vurğulanan kontekstdə ölkə rəhbəri Aprel döyüşlərinin Ermənistan iqtidarının çöküşündə oynadığı xüsusi rolu vurğulayıb - "...iki il bundan əvvəl Aprel döyüşləri də Ermənistanın o çürük və laxlamış sütunlarını daha da sarsıtdı. Aprel döyüşləri Sarkisyan rejiminə elə böyük zərbə oldu ki, onlar iki il ərzində bu zərbədən özünə gələ bilmədilər və əlbəttə, uzun illər yaratdıqları mif, - guya onların ordusu güclü ordudur, - darmadağın edildi. Biz bu mifi məhv etdik" (bax: əvvəlki mənbəyə).

Bunlar təbii ki, Ermənistan cəmiyyətində böyük bədbinlik yaratdı. Onlar gördülər ki, uzun illərdir ağız dolusu güclü ordudan danışan S.Sarkisyanın yaratdığı müdafiə səddi cəmi bir neçə saat ərzində Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. S.Sarkisyan buna necə reaksiya verdi? Dərhal xarici ölkələrə və beynəlxalq təşkilatlara yalvarmağa başladı ki, Ermənistan ordusunun tam məğlub olmasının qarşısını alsınlar. Bütün bunları nəzərdə tutaraq Azərbaycan Prezidenti sual edir: "Əgər səndə güclü ordu varsa, niyə beynəlxalq təşkilatlardan yardım istəyirsən? Niyə Azərbaycandan beynəlxalq təşkilatlara şikayətlər edirsən? Sən bu torpaqları xarici dövlətlərin dəstəyi ilə işğal etmisən. O vaxt Azərbaycanda anti-milli, satqın hakimiyyət hökm sürürdü, fərarilər hakimiyyəti hökm sürürdü" (bax: əvvəlki mənbəyə).

Deməli, Azərbaycanın torpaqlarını işğal altında saxlamağın bədəlini Ermənistan dövləti və cəmiyyəti ağır surətdə ödəyir. İndi bütün gəlirli layihələrdən məhrum edilmiş bu vassal ölkə keçən əsrin 90-cı illərində öz xarici havadarlarının ciddi yardımı və təhriki ilə Azərbaycanın 20 faiz ərazisini zəbt etməklə özünü böyük bəlaya salıb. İqtisadi uğurlarla yanaşı, Azərbaycan ordu quruculuğunda da böyük irəliləyiş əldə edib ki, bunun da əyani sübutlarından biri bu il keçirilən hərbi parad oldu. Dünya, o cümlədən erməni cəmiyyəti gördü ki, Azərbaycan silahlı qüvvələri çox güclüdür, onun vurucu imkanları sürətlə yüksəlib, döyüş qabiliyyəti ən yüksək səviyyədədir və eyni zamanda, ən müasir hərbi texnika ilə təchiz olunub.

Yenə də ən böyük humanizmi Azərbaycan rəhbəri nümayiş etdirir. İlham Əliyev nitqində acınacaqlı vəziyyətdə olan Ermənistana deyir: "...beynəlxalq təşkilatlara müraciət edir ki, gəlin, bizə kömək edin, gəlin, Azərbaycan bizi boğacaq. Torpaqlarımızdan çıx, onda rahat yaşaya bilərsən. Yoxsa qorxu içində yaşayan ölkələr, insanlar daim stress içindədirlər. Bu, onların psixoloji durumuna da mənfi təsir göstərir. Biz bunu indi görürük və daha da böyük fəsadlar ola bilər" (bax: əvvəlki mənbəyə).

Çox gözəl sonluqdur. Azərbaycan sürətli və davamlı inkişafında, Ermənistan isə iflasla uğraşmaqda... Ermənistanın bircə xilas yolu var ki, onu da Prezident İlham Əliyev konkret ifadə edib!

**Newtimes.az**




# Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib

***İyulun 24-də Azərbaycan Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a Şuradan məlumat verilib.***

Şuranın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Şura 2018-ci ilin ötən 7 ayı ərzində özünün Nizamnamə tələblərinə uyğun olaraq fəaliyyət göstərib. Qurum şikayətlərin araşdırılması, qərar və rəylərin çıxarılması ilə yanaşı, ictimai-siyasi mühitdə baş verən proseslərə adekvat reaksiyası ilə seçilib, medianın cəmiyyət həyatına təsirinin müxtəlif aspektlərinə dair tövsiyələr ünvanlayıb. “2018-ci il mart ayının 10-da Azərbaycan Jurnalistlərinin VII qurultayı keçirildi. Qurultay Şuranın İdarə Heyətinin tərkibinin genişləndirilməsinə dair qərar çıxardı. Buna müvafiq olaraq, ali məclisdə İdarə Heyətinin 23 nəfərdən ibarət yeni tərkibi seçildi. Hesab edirəm ki, ötən müddətdə yeni tərkibdə təmsil olunan həmkarlarımız kifayət qədər məhsuldar fəaliyyət göstərdilər. İstər Mətbuat Şurasının tədbirlərində, keçirdiyi iclaslarda, istərsə də fərdi qaydada fikir və düşüncələrini bölüşməklə vətəndaş cəmiyyəti quruculuğu prosesinə özlərinin layiqli töhfələrini verdilər”, - deyə Ə.Amaşov vurğulayıb.

Sədr, həmçinin Şuranın Gəncədə baş vermiş terror hadisələrinə medianın monolit komanda kimi dövlətçilik maraqları baxımından münasibət göstərməsi istiqamətində də iş apardığını diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan mediası terror və iğtişaşlarla müşayiət edilən Gəncə hadisələrinə kifayət qədər peşəkar mövqedən yanaşdı. Ölkənin aparıcı kütləvi informasiya vasitələri sübut etdilər ki, Azərbaycanda qərarlaşmış siyasi sabitlik, asayiş və əmin-amanlıq mühitini pozmağa cəhd göstərənlərin qarşısında güclü müqavimət potensialına malik mütəşəkkil birlik var. Bu isə cəmiyyət üçün kifayət qədər mühüm mesajdır. MŞ sədri bu mesajın müəllifləri olan KİV-lərə rəhbərlik etdiyi qurumun adından təşəkkürünü bildirib.

Ə.Amaşov Azərbaycan milli mətbuatının 143 illiyinin qeyd edilməsini də ötən müddətin mühüm hadisələrindən biri kimi dəyərləndirib: “Azərbaycan milli mətbuatının yubileylərinin keçirilməsi artıq ənənəyə çevrilib. Yubiley ilinin olmamasına baxmayaraq mətbuatımızın 143 illiyi kifayət qədər aktiv qeyd edildi. Müxtəlif nazirliklər, komitələr, idarə, müəssisə və təşkilatlar bununla əlaqədar geniş toplantılar, müsabiqələr təşkil etdilər. Eyni zamanda, biz ayrı-ayrı dövlət qurumlarının Milli Mətbuat Günü münasibətilə KİV redaksiyalarına fərdi təbrik nümunələrini də gördük. Bütün bunlar, şübhəsiz, medianın cəmiyyətdəki roluna və mövqeyinə verilən böyük qiymət idi. Hesab edirik ki, mətbuatın missiyasına dəyər verən, onu özünə tərəfdaş seçən hər bir dövlət qurumunun fəaliyyəti təqdir olunmalıdır”.

MŞ sədri müstəqillik illərində Azərbaycan mətbuatının inkişaf dinamikasından da söz açıb, bununla bağlı bəzi müqayisəli məqamlara toxunub. O xatırladıb ki, ötən əsrin 90-cı illərində Azərbaycan ciddi informasiya blokadasında idi. Dünya ictimaiyyəti 20 Yanvar faciəsi, Xocalı soyqırımı, ümumən Qarabağ münaqişəsi ilə bağlı məlumatları əsasən xarici KİV-lərdən əldə edirdi. Bir çox hallarda isə xarici KİV-lər Azərbaycanın özü üçün də informasiya mənbəyi rolunda çıxış edirdilər. Bu tendensiya onunla bağlı idi ki, mətbuatımız zəif idi. Hazırda isə mediamız təkcə Azərbaycanla deyil, bütövlükdə regionla bağlı etibarlı istinad mənbəyi rolunda çıxış edir. Belə bir nəticənin əldə edilməsi son dərəcə vacibdir və gəldiyimiz nöqtənin, keçdiyimiz yolun məsuliyyəti hər kəs tərəfindən dərk edilməli, qarşıdakı fəaliyyət üçün baza rolunu oynamalı, mövcud problemlərin aradan qaldırılması əzmini stimullaşdırmalıdır.

Mediaya dövlət dəstəyinin sistemli şəkil aldığını vurğulayan Ə.Amaşov onu da bildirib ki, bu dəstək KİV-lərin müstəqilliklərinin qorunmasına, onların cəmiyyət və dövlət üçün prioritet sayılan istiqamətlərdəki fəaliyyətinin daha da gücləndirilməsinə yönəlib. “Biz Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyətinin timsalında bunu görürük. 2009-cu ildən fəaliyyət göstərən Fond “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası” əsasında iş aparmaqdadır. İstər konsepsiyanın qəbulu, istərsə də Fondun həyata keçirdiyi tədbirlər Prezident İlham Əliyevin media ilə bağlı fikir və düşüncələrinin sistemləşdirilmiş, bu gün üçün konseptual əhəmiyyət daşıyan tərkib hissələridir. Ölkə rəhbərliyi hər zaman medianın missiyasına böyük önəm verib, jurnalist əməyini yüksək qiymətləndirib. Dövlət başçısının medianı özünə tərəfdaş kimi təqdim etməsi həm də onun idarəçilik prosesindəki mövqeyinin təsdiqidir”, - deyən Ə.Amaşov Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında” 2018-ci il 16 iyul tarixli Sərəncamı üzərində dayanıb. O, Sərəncam əsasında ayrılmış 1 milyon manatın gündəlik qəzetlər arasında bölündüyünü diqqətə çatdırıb: “Bəzən belə fikirlər səslənir ki, mediaya dövlət dəstəyi göstərilməməlidir. Ümumən müxtəlif vaxtlarda bununla bağlı baxışlar olub. Əlbəttə, biz də hesab edirik ki, media orqanı özünü maliyyələşdirmə imkanına malik olmalıdır. Unudulmamalıdır ki, dövlət dəstəyi məhz bu cür KİV-lərin formalaşmasını rəhbər tutur. Həm də nəzərə alınmalıdır ki, dövlət üçün güclü, təminatlı medianın varlığı şərtdir. Yəni, bir növ, dövlət-media tərəfdaşlığı var. Mətbuat Şurası olaraq biz bu tərəfdaşlıqda internet media resurslarının da iştirakını təklif edirik. Çünki internet üzərindən yayımlanan media vasitələrinin cəmiyyətə təsir imkanları artır və onların fəaliyyətinin dövlət maraqları baxımından uzlaşdırılmasının vaxtı çatıb. Hesab edirik ki, tezliklə bu məsələyə diqqət yetiriləcək. Ümumən mediaya dövlət büdcəsindən vəsaitin artırılması ilə internet mediaya zəruri diqqət ayrılacaq. Ancaq qəzetlərin də ayaqda qalması şərtdir. Nəzərə alaq ki, onlar bu gün yaşananların salnaməsini yaradırlar. Hər biri üzərindən illər, əsrlər keçdikdən sonra günümüzlə bağlı tədqiqat mənbələridir. Bilmək olmaz ki, hansısa internet media orqanının materialı 100 il əvvəlki qəzetin mənbə kimi oynadığı rolu oynayacaq, ya yox. Təminat yoxdur. Buna görə də hazırkı durumda qəzetlər qorunmalıdır. Mövcud xüsusda dövlət dəstəyi son dərəcə vacibdir və davamlılığı şərtdir. Mətbuat Şurasının mövqeyi buna əsaslanır”.

Tədbirdə çıxış edən MŞ İdarə Heyətinin üzvləri - Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, “Teleqraf” MMC-nin direktoru Aynur Camalqızı, “Azadinform” İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev, “Milli.az” saytının rəhbəri Anar İmanov, MŞ sədrinin müavinləri Umud Rəhimoğlu və Müşfiq Ələsgərli Şura sədrinin çıxışında yer alan məqamlarla əlaqədar fikirlərini bölüşüblər. Onlar medianın Gəncə hadisələri, eyni zamanda, Mingəçevirdəki enerji qəzası nəticəsində yaranmış durum ilə əlaqədar mövqeyini təqdir ediblər.

Mediaya dövlət dəstəyinin konseptual tərəflərinə toxunan İdarə Heyətinin üzvləri bildiriblər ki, hazırkı dövrdə bu siyasət heç də yalnız ənənəvi medianın varlığını qoruması mahiyyəti daşımır, bütövlükdə Azərbaycan dövlətinin media ilə əlaqədar baxışlarını özündə birləşdirir. Bu baxışlar isə “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nda kifayət qədər əhatəli əksini tapıb və sənəddə nəzərdə tutulan digər vəzifələrin reallaşdırılmasına nail olmaq media ictimaiyyətinin qarşısında duran mühüm vəzifələrdəndir.

İdarə Heyətinin üzvləri mediaya dövlət dəstəyinin əhəmiyyətsizliyi ilə bağlı səslənən fikirlərə də münasibətlərini açıqlayıblar. Onlar bildiriblər ki, bu fikirləri dövriyyəyə gətirənlərin müəyyən qismi vaxtilə məsələnin əksini iddia edən, prosesi dəstəkləyən şəxslərdir. Belələrinin müəyyən qrup maraqları naminə gedilən yola kölgə salmaq, ümumən Azərbaycanda aparılan media siyasətinə təftişçilik nöqteyi-nəzərdən yanaşmaq, hansısa fərdi narazılıqları geniş etiraz kimi göstərmək cəhdləri yolverilməzdir, səmimilikdən uzaqdır. Azərbaycanda media sahəsində aparılan dövlət siyasətinin alternativsizliyini vurğulayan Mətbuat Şurasının İdarə Heyətinin üzvləri bu siyasətin daha zəngin çalarlar əldə etməsi üçün qarşılıqlı əməkdaşlığın, fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini əsaslandırıblar.

# Uğurlu xarici siyasət faktoru



***Şirvan Əbilov, Prezident təqaüdçü***

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya səfəri, eləcə də, İtaliya prezidentinin Bakıya səfər etməsi, mühüm iqtisadi və siyasi razılaşmaların əldə edilməsi, artıq Azərbaycanın dünya birliyindəki mövqelərinin əhəmiyyətli dərəcədə yüksəldiyini ortaya qoyur. Dünya birliyi, artıq Azərbaycanın siyasi və iqtisadi əhəmiyyətini strateji baxımından dəyərləndirir. Bu faktın özü-özlüyündə ölkəmizin dünya birliyi üçün vacib strateji tərəfdaş ölkə olduğunu təsdiqləyir. Bu səfərin iqtisadi əlaqələr baxımından da önəmi çox böyükdür. Təsadüfi deyildi ki, Azərbaycan Prezidentinin səfərinə Fransanın aparıcı şirkətləri çox böyük maraq göstərirdilər. Diqqət edilən məqamlardan biri də odur ki, Azərbaycan Prezidenti İlham Əliyev Fransada dostcasına qarşılandı və xüsusi diqqətlə əhatə olundu. Səfər zamanı Azərbaycan Prezidenti Fransa prezidenti Emmanuel Makron, Fransa Senatının sədri Jerar Larşe, Fransa Milli Assambleyasının sədri Fransua de Rüji, eləcə də, Fransa iqtisadiyyatında aparıcı rol oynayan şirkət rəhbərləri ilə yüksək səviyyəli görüşlər keçirdi. Azərbaycan Prezidentinin səfərinə göstərilmiş yüksək diqqət Azərbaycan Prezidentinin simasında Azərbaycan dövlətinə yüksək etimadın bariz nümunəsi kimi qiymətləndirilməlidir. Səfər Azərbaycan Prezidenti İlham Əliyevlə fransalı həmkarı arasında şəxsi münasibətlərin pozitiv məcrada dərinləşməsi baxımından da əhəmiyyətli oldu. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, səfər zamanı 2,3 milyard dollarlıq anlaşmalar imzalandı və bu anlaşmalar ölkəmizə olduqca böyük iqtisadi dividendlər qazandıracaq. Cənab Prezdentin Fransa biznes strukturları ilə görüşləri və onların Azərbaycan iqtisadiyyatına investisiya yatırmaq istəklərinin bildirməsi gələcəkdə də hər iki ölkənin iqtisadiyyatlarının inkişafına öz töhfələrini verəcəkdir. Cənab Prezdentin Fransaya səfəri həm də siyasi baxımdan böyük əhəmiyyət daşıyır. Fransa Avropanın siyasi güc mərkəzidir. Fransanın sözü Avropa İttifaqı üçün böyük əhəmiyyətə malikdir. Həm də Fransa ATƏT-in həmsədrlərindən biri olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsində iştirak edir.

Bu səfərin əsas məqamlarından biri də odur ki, Ermənistan daima Avropada siyasi dayaq kimi Fransanı görürdü. Çünki güclü erməni lobbisi zaman-zaman Avropanın siyasi qərar mərkəzi olan Fransada Azərbaycana qarşı ən müxtəlif səviyyələrdə təxribatlar törədirdi. Cənab Prezidentin Fransaya səfəri çərçivəsində Fransanın prezidenti ilə, parlamentin sədri ilə və ayrı-ayrı biznes strukturların nümayəndələri ilə görüşlərin keçirilməsi və onların Azərbaycana marağının artması ermənilərin Fransada dəstəyini neytrallaşdırmış hesab etmək olar. Fransa üçün öz inkişaf dövrünü yaşayan, iqtisadiyyatı günü-gündən güclənən və Cənubi Qafqazın aparıcı ölkəsi olan Azərbaycan daha maraqlıdır ki, nəinki Ermənistan.

Bir başqa məqama diqqət edək. Hər kəsə məlumdur ki, Azərbaycan dövlətinin xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarlar öndə dayanır. Bu amillər isə regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə böyük töhfədir. Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Fransaya səfəri də, məhz bu baxımdan böyük əhəmiyyət daşıyır. Eyni zamanda, səfər çərçivəsində Azərbaycan Prezidentinin Fransa Senatının və Milli Assambleyasının sədrləri ilə görüşləri, növbəti dəfə göstərdi ki, bizim əlaqələrimiz həm də parlamentlərarası əməkdaşlıq sahəsində kifayət qədər ciddi əsaslara malikdir. Parlament sahəsində münasibətlərimizin möhkəm bünövrəsi və yaxşı perspektivləri var. Birinci vitse-prezident Mehriban Əliyevanın hələ Milli Məclisin deputatı olarkən, Azərbaycan-Fransa Parlamentlərarası Dostluq Qrupuna rəhbərlik etməsinin uğurlu nəticələri olub. Məhz Mehriban xanım Əliyevanın sayəsində parlamentlərarası əməkdaşlığı yeni mərhələyə daxil olub.

Beləliklə, Cənab Prezidentin Fransaya səfəri, nəinki Fransa-Azərbaycan münasibətlərin inkişafına, həm də bütün Avropa İttifaqı ilə əməkdaşlığın genişlənməsinə öz töhfəsini verəcəkdir.



# İki əsrlik tarixi dövrün acı nəticələri

***Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək, süni surətdə Ermənistan dövləti yaratmaq ermənilərin yeritdiyi təcavüzkar siyasətin tərkib hissəsini təşkil edir. Yaxın keçmişimizin olayları nəticəsində, vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə bağlı Ermənistanda yaşayan azərbaycanlıların öz tarixi etnik torpaqlarından deportasiya olunması ermənilərin iki əsrlik tarix boyunca həyata keçirdiyi siyasətin davamıdır.***

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qeyd etdiyi kimi, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır: "Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir".

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

Təkcə son dövrün olayları nəticəsində erməni terrorçuları tərəfindən zəbt olunmuş Qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri qalmışdır. XIX əsrdə İrəvan quberniyasında 310 məscid olub və həmin məscidlər ermənilər tərəfindən dağıdılıb. Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələrindən başqa respublikamıza dəymiş ümumi zərərin məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar vardır. Bu faktlar əsasında deyə bilərik ki, Azərbaycan xalqının məhv edilmiş qədim, əvəzolunmaz qiymətli mədəni sərvətləri olan bu abidələrin qiymətini təyin etmək, praktiki olaraq, mümkün deyildir.

Bütün bunlar Ermənistan tərəfindən Azərbaycana qarşı olan ərazi iddiasının nəticəsində baş verir. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Erməni qəsbkarlarının işğalı altında olan ərazilərimizdəki abidələrin saxtalaşdırılması istiqamətində aparılan işlər Ermənistanın özünü təsdiqləmək, tarixi və mədəniyyətini yaratmaq siyasətinə xidmət edir.

Tarixə nəzər salsaq, görərik ki, Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşdür. 1828-ci ildə bağlanan "Türkmənçay" müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan və Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə zaman- zaman - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır.

Ermənistan adlanan ərazidəki türk mənşəli adların dəyişdirilməsi siyasətinə "Türkmənçay" sülh müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli və məqsədli şəkildə həyata keçirildi. Tarixçi alimlərin araşdırmalarına əsasən, adların dəyişdirilməsi siyasəti inqilabdan sonra yeni vüsət alıb, minlərlə kənd adı məhv edilib, rəsmi qərarlarla adların bir qismi ruslaşdırılıb, bir qismi isə qondarma erməni adları ilə əvəz edilib.

Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idi. Tarixçi alimlər ermənlərin Azərbaycan toponimlərinə təcavüzünü dövrlərə bölərək, bu istiqamətdə araşdırmalar aparmışdılar. Həmin araşdırmaların qənaətinə əsasən, türk mənşəli toponimlər erməni adları ilə əvəzlənmişdir. Ardıcıl olaraq bir məqsədə doğru addımlayan ermənilərin saxta tarix siyasəti yazılmış mənbələr vasitəsi ilə təqdim edilir. Tarixi mənbələrdə göstərilir ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermişdir: "Addəyişmənin birinci dövründə türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Bu da ərazinin Rusiya tərəfindən işğalı və oraya rusların kütləvi şəkildə köçürülməsi ilə bağlıdır. İlk dəyişdirilən ad isə Cəlaloğlu (Stepanovan) rayonundakı Qaraməhəmməd kəndidir. Onun adı dəyişdirilərək Aleksandrovka qoyulub". 1918-20-ci illərdə ermənilər xalqımızı soyqırımına məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırmaqla və yenidən addəyişməni davam etdirməklə mənəvi soyqırımını da davam etdiriblər. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Molla Dursun - Şaumyan, Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi. Ermənilər soyqırımı siyasətinin nəticəsində yer adlarımızın da soyqırımı zaman-zaman həyata keçirilib. Tarixi faktdır ki, SSRİ dövründə daha çox Azərbaycan toponimlərinə qarşı iddialı çıxışlar olub. Bunun nəticəsidir ki, imperiyanın ilk illərində Azərbaycana məxsus olan yer adları dəyişdirildi. Belə ki, 1924-1930-cu illər ərzində Ermənistanda 80 toponim dəyişdirildi. Tarixi sənədlərdə göstərilir ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsi müxtəlif tərəflərdən izah olunsa da, kökü həmin adların türk mənşəli olması idi. Leninin ermənipərəst siyasəti və Azərbaycan toponimlərinin erməniləşdirilməsi daha kütləvi xarakter alırdı. Leninin razılığı ilə 1920-ci ildə onlar ərazi iddialarını təmin edə bilmişdilər. Belə ki, azərbaycanlılar yaşayan Zəngəzur və Göyçə mahalları, Qazax qəzasının Dilican dərəsi Azərbaycandan qoparılıb Ermənistan Respublikası yaratmaq naminə ermənilərə bağışlandı. Bu genosid siyasətinin bir istiqamətidir ki, Azərbaycan diyarı olan İrəvan xanlığının tarixdən və yer üzündən silinməsinə xidmət edirdi. Belə ki, 1924-cü ildən həmin addəyişdirmə prosesi başlandı və ilk olaraq, Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1935-ci ildə 195 kəndin, 1945-ci ildə 39 kəndin, 1946-cı ildə 120 kəndin, 1947-1978-ci illərdə 400-dən çox kəndin, 1978-80-ci illərdə 300-dən çox kəndin, 1991-ci ildə isə qalan 94 kəndin adı dəyişdirildi. Tarixçi alimlərin fikirlərinə istinadən deyə bilərik ki, bir çox hallarda yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməncəyə tərcümə olunmuş, ya da bir-iki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melikkənd-Melikgyuğ və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin, düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. Dəqiq araşdırılmış faktlar sübut edir ki, indi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi. Ermənilərin türklərin, xüsusilə də, Azərbaycan türklərinin başlarına açdıqları oyunlar yalnız adların, toponimlərin dəyişdirilməsi ilə deyil, bütün sahələrdə özünü göstərir. Bu, erməni siyasətinin mənfurluğu, öz tarixini Azərbaycanın qədim tarixi üzərində qurmaq ideyasından pöhrələnir.

Buna baxmayaraq, əcdadlarımızın qoyduğu müqəddəs adlar tarixin səhifələrinə həkk olunub. Zaman həqiqətləri bərpada güclü silahdır. Bu reallıqlar erməni xislətini, Azərbaycana qarşı iddialı çıxışını əks etdirir.

Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu əraziyə bitişik yeddi rayon Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə ediblər və o vaxtdan bəri ATƏT-in Minsk Qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bu günə qədər yerinə yetirməyib.

Bu gün ilk ad dəyişilmə zamanından 200 il keçir. İki əsrlik tarixi dövrün acı nəticələrini hələ də yaşayırıq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlət sərhədində dörd əcnəbi vətəndaş saxlanılıb

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.***

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata görə, xidmətin əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlərdə dörd əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək, iki nəfər Azərbaycan Respublikasının vətəndaşının isə ölkə ərazisinə qaçaqmal keçirmək cəhdinin qarşısı alınıb.



İyulun 19-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul reysi ilə uçmaq istəyən 1982-ci il təvəllüdlü Pakistan İslam Respublikasının vətəndaşı İqbal Mudassarın təqdim etdiyi pasportda saxtalaşdırma əlamətləri aşkarlanmış, laboratoriya şəraitində dərinləşdirilmiş yoxlama zamanı Yunanıstana məxsus daimi yaşayış vizasının saxta olması təsdiqlənib.



İyulun 20-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Frankfurt reysi ilə uçmaq istəyən 3 İraq vətəndaşı - 1978-ci il təvəllüdlü Aldohuky Sherwan Bashir Yousif, 2002-ci il təvəllüdlü Aldohuky Sahand Sherwan Bashir, 2009-cu il təvəllüdlü Aldohuky Mohammed Sherwan Bashirin pasportlarına vurulmuş Almaniyaya məxsus Şengen vizalarının saxta olmasına şübhə yaranmış və dərinləşdirilmiş yoxlama zamanı vizanın, həqiqətən də, saxtalaşdırılması təsdiqini tapıb.

İyulun 21-də "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Rüspublikasından gələn Azərbaycan Respublikası vətəndaşı Salyan rayonunun sakini 1966-cı il təvəllüdlü Hüseynov Elçin Rzalı oğlunun əl yükünə baxış zamanı psixotrop dərman olan 100 həb "Tamol", 20 həb "Astrodol" aşkar edilib.

İyulun 22-də "Şıxlı" dövlət sərhədinin buraxılış məntəqəsində Gürcüstandan gələn Azərbaycan Respublikasının vətəndaşı Qazax rayonunun sakini 1994-cü il təvəllüdlü İsmayılov Sərxan Əlövsət oğlunun idarə etdiyi "Mersedes" markalı 35-BL-414 dövlət nömrə nişanlı minik avtomobilinə baxış zamanı avtomobilin yanacaq çənində gizlədilmiş şəkildə ümumi sayı 36402 ədəd olan 53 qutu "Superblitz" və 60 qutu "Petards" pirotexniki vasitə aşkar olunub.

Qeyd edilən faktlar üzrə müvafiq tədbirlər həyata keçirilir.

**ZÜMRÜD**

# "Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında gənclərin rolu"

## *Bu mövzuda YAP Masallı rayon təşkilatı və DQİDK-nin Masallı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında gənclərin rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə DQİDK-nin Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov, dini icma sədrləri və gənclər iştirak etmişlər.***

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirib ki, bu gün Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi və dünyəvi dövlət kimi tanınır: "Azərbaycan bir çox millətlərin və konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Ölkəmizdə dövlət-din münasibətləri çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında eyni statusa malikdir".



Tədbirdə çıxış edən DQİDK-nin Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov Azərbaycanda dövlət-din münasibətlərindəki uğurlardan və bu sahədə qanunvericilik bazasının formalaşdırıldığını diqqətə çatdırdı. Natiq qeyd edib ki, Azərbaycanda dini və mənəvi azadlıq təmin olunub, dinlərin nümayəndələri azad şəkildə öz ibadətlərini həyata keçirirlər.

İlahiyyat üzrə fəlsəfə doktoru, Masallı şəhəri "Hacı Mirağa" məscidi dini icmasının sədri Əliqulu Qardaşov, Masallı şəhəri Heydər Əliyev Mərkəzinin elmi işçisi Aybəniz Novruzova və başqaları çıxışlarında dövlət-din münasibətlərinin formalaşmasında gənclərin rolunun nümunə götürldüyünü qeyd etdilər. Digər ölkələrin dövlət-din münasibətlərində Azərbaycan modelindən istifadə olunur.

**Rəfiqə Hüseynova**

# Ermənistanda hakimiyyət "piramidası" artıq dağılır

***"Hər ötən gün Ermənistan hakimiyyətində təmsil olunanların "ixtisaslaşmış" olduğu bir daha sübuta yetirilir. Göründüyü kimi onları dəyişmək mümkün deyil. Belə təəssürat yaranır ki, Ermənistanda yaranmayan hakimiyyət "piramidası" artıq dağılır". SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə bunu "İrates" qəzeti yazır. Yazıda bildirilir ki, Ermənistanda çatlar təkcə daxili siyasətdə deyil, ilk növbədə xarici siyasətdə özünü göstərməkdədir: "Rusiya üçün Ermənistanın yeni hakimiyyəti anlaşılmaz hibrid kimidir. Deyilənlərə görə, yaxın müddətdə Moskva-İrəvan arasında münasibətlər "anlaşmaz divar"a söykənəcək. Bu, Ermənistanın baş nazirinin keçirdiyi son mətbuat konfransında söylədikləri fikir konteksti əsasında ortaya çıxıb".***



Ermənistanın ABŞ və Avropa Birliyi ilə də münasibətləri də yaxşı deyil: "Paşinyan - Svitalskiy diskussiyasını, iki baş nazir müavinlərinin ABŞ və Kanada "tur"larını xatırlasaq, görüşlərin nəinki aşağı səviyyədə keçirildiyini, hətta investisiya məsələsində heç bir nailiyyətin əldə olunmadığını görərik. Ermənistan xarici siyasətdə özü ilə tək qalıb. Ölkənin "maraqlı" təkliflərə hazır olduğunu demək çox çətindir. Yeni hakimiyyətin, xüsusilə də Paşinyanın ifadələri bu istiqamətdə müsbət nəsə deməyə şübhə yaradır.

### Çoxsaylı problemlər.

Paşinyan daxili və xarici problemlərin qarışığında təkbaşına oynamağa qərar verib: "Tək oyunçu olan Paşinyanın siyasi qüvvələr, eləcə də, hakimiyyət üzvləri ilə çoxsaylı problemləri var. Onların bir çoxu Paşinyanın komandasında olan şəxslərdir ki, artıq həmin şəxslərlə böyük mübarizə başlayıb. Bunun mərkəzində duran şəxs isə Daniel İoannisyandır. Hazırda onlar arasında mübarizə üstüörtülü şəkildə davam edir. Paşinyanın mətbuatla da böyük problemləri var. Yeri gəlmişkən, o, media liderlərinin tanınmış bəyanatına da reaksiya göstərmədi. Keçmiş jurnalist mətbuatın səsləndirdiyi həyəcan siqnallarının "anti-dövlət" yanaşması olduğunu söyləməklə kifayətlənmiş oldu".

**Nailə Məhərrəmova**



# Ermənidən betər ermənilər

**RƏFİQƏ**

***Bu gün uşaqdan da soruşanda: "düşmənimiz kimdir?" Deyir erməni. Ancaq demə, daxilimizdə ermənidən də betər erməni var: Leyla və Arif Yunuslar, Xədicə İsmayıl. Xalq arasında xəyanətkar, hiyləgər və qəddar düşmənlərimizə olan sonsuz nifrətdən doğan belə bir məsəl də var ki, erməni olmaq üçün heç də erməni kimi dünyaya gəlməyə ehtiyac yoxdur. Fakt budur ki, xalq arasında "Sülh və Demokratiya İnstitutu"nun direktoru, "hüquq müdafiəçisi" L.Yunus, eyni zamanda, "araşdırmaçı" X.İsmayıl həm əməlləri ilə, həm də ermənilərlə yaxın qohumluğu səbəbləri ilə bu adla anılır. "El gözü tərəzidir"- deyiblər.***

Bu mənada, istər L.Yunusun, istər də X.İsmayılın ermənilərə bənzədilməsi məsələsində kimisə günahlandırmağa əsasımız yoxdur. Çünki hər ikisi rəzil yollara gedən satan və satılan xəyanətkarlardır. Bəli, sürətlə dəyişmək, cilddən-cildə girmək erməni xüsusiyyətidir. Bu, L.Yunus və X.İsmayılda kifayət qədər var. Hər ikisi ancaq söyüş söyməyi Azərbaycan dilində ifadə edə bilirsə, belələrini ermənidən betər erməni adlandırmaqdan başqa bir söz tapa bilmirəm.

Bir də "mən elə edəcəm ki, mənə, nəinki erməni deyəcəklər, hətta başqa ittihamlar da səsləndirəcəklər"-deməsi L.Yunusun ermənidən betər erməni olduğunu və özünə azərbaycanlı deməyə mənəvi haqqı çatmır.

### Elə Xədicə İsmayıl da...

Haqq nazilər, amma üzülməz. Ölkənin milli maraqlarını satan X.İsmayıl heç L.Yunusdan geri qalmır. Çünki bu ünsür də qondarma hüquq müdafiəçisi L.Yunus kimi Vətənə xəyanətin simvolu kimi artıq çoxdan "tarixə" düşüb. "X.İsmayıla təsadüfi deyil ki, X.İsmayıl çox primitiv, hətta plagiat şəkildə sovet hakimiyyəti dövründə tanınmış dissidentlərin dəst-xəttini təkrarlamağa, özünü onlarla bir cərgəyə qoymağa çalışır. Amma bu da nəticəsiz qalır. Çünki Azərbaycan ictimaiyyəti, sağlam düşüncəli insanlar X.İsmayılın qaranlıq əməlləri barədə kifayət qədər məlumatlıdır və heç bir halda, onların ermənipərəst fəaliyyətinə bəraət qazandıra bilməz. Haqq qazandıranların isə azərbaycançılıq faktoruna nə qədər ziyan vuranlar olduğunu demək, düşünmək kifayətdir. Erməni qanının daşıyıcısı X.İsmayılın da adı Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq, həmişə də xalqın nifrət və həqarətinə düçar olacaq.

# Ermənistan növbəti siyasi böhrana doğru

## Paşinyan - siyasi simasını itirən uğursuz küçə "demokratı"

***Ermənistanda gərgin olan ictimai-siyasi vəziyyət işğalçı ölkənin baş naziri Nikol Paşinyanın Brüssel səfərindən sonra daha da dərinləşib. İşğalçı ölkənin Qərbə bağladığı ümidlərinin puç olması hazırda Ermənistanda istər iqtidar, istərsə də müxalifət cəbhəsində parçalanmalar və fikir ayrılıqlarına səbəb olub.***

Siyasi ekspertlər bildirirlər ki, ölkədə belə vəziyyətin baş verməsi gözlənilən idi: "Çünki siyasi sahədə savadsız Nikol Paşinyan kimi küçə demokratına kim dəyər verər? Bu gün bir əldə iki qarpız tutan Nikol Paşinyan "Rusiya, yoxsa Qərb?" arasında qalaraq, növbəti savadsız siyasət yolu axtarışındadır".

Siyasi ekspert Konstantin Lyapunov isə qeyd edir ki, şantaj taktikası Paşinyanın yoludur və Rusiyanı Qərblə, Qərbi isə Rusiya ilə şantaj edir: "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan ölkələr arasında bircə Ermənistan Brüsselə üz tutub. Ermənistanın baş naziri başda olmaqla, bu ölkənin bütün hökuməti Avropaya qarmaq atır. Məqsəd sadə və aydındır: pul. Amma Ermənistan hökumətinin Qərbdən pul istəməsi ucuz və hörmətsiz addım idi. Belə ki, Paşinyan vizit kartı paylamaq və pul dilənməklə özünü bir daha Brüsseldə rüsvay etdi. Avropa İttifaqından 70-80 milyon avro pul almaq məqsədi ilə özünü bir daha alçaltdı, ancaq nəticədə, əli havada qaldı. Belə biabırçılıqdan sonra reallığı gizlətmək mümkün deyil. Reallıq göz qabağındadır. Artıq Paşinyanın, nəinki Qərbin, heç Rusiyanın yanında da hörməti qalmayıb. Yaxşı olar ki, belə bir alçalmış nazir ölkəsinin iqtisadiyyatını dirçəltməklə məşğul olmaqdansa, şantaj və dilənçilik yolundan əl çəksin".

### Paşinyanın puç xəyalları...



Ermənistan mətbuatı yazır ki, Paşinyan Brüsselə gedəndə, böyük xəyallarla yaşayırdı: "Deyirdi ki, əgər yerli korrupsionerlərdən birini yaxşıca silkələsək, onların cibindən bu fikirləşdiyimizdən də daha çox pul çıxacaq. Ancaq Ermənistandakı Aİ nümayəndə heyətinin rəhbəri Pyotr Svitalski isə deyib ki, Avropa İttifaqına aydın ideyalar və təkliflər lazımdır. Boş sözlər yox: "Erməni tərəfinin narazılığı varsa, bunu sənədlər və təkliflərlə təqdim etmək lazımdır. Söz yığınına ehtiyac yoxdur". Ermənistanın "168 jam" qəzeti məsələyə həsr etdiyi məqalədə "Avropanın hazırda Ermənistan vecinə deyil" deyə bildirir. Nəşr Fransada yaşayan erməni mənşəli politoloq Kays Minasyanın fikirlərinə də yer ayırıb. Onun sözlərinə görə, "məxməri inqilab"dan sonra Ermənistan özünə qarşı Qərbdən daha ciddi münasibət gözləyirdi: "Əslində, Avropanın Ermənistana dəstək verməsinə mane olan əsas səbəb işğal faktorudur. Apardığı işğalçılıq siyasəti ilə Ermənistan özünü təcrid vəziyyətinə salıb. Düşmən ölkə bu səbəbdən, uzun illərdir iqtisadi-siyasi böhran içində yaşayır. Ermənistanda daxili vəziyyət sabit deyil. İdarəçilik sistemi korrupsiyalaşıb. Fransa vətəndaşı olan erməni əsilli iş adamı Aşxen Qorçunyan da Ermənistandakı inhisarçılıqdan şikayətçidir. O, diaspor üzvlərini İrəvana yardımları dayandırmağa çağırıb. Xaricdə yaşayan ermənilərə video-müraciət edən biznes-ledi bildirib ki, Ermənistanda onu müflis ediblər. Nikol Paşinyanın məqsədi xalqı aldatmaqdır. Bu baxımdan, Paşinyanın bir siyasətçi kimi məğlubiyyəti uzaqda deyil".

### Armen Badalyan: "Kim deyir ki, hazırkı hakimiyyətin nüfuzu yüksəkdir?"

Erməni siyasi texnoloqu Armen Badalyan isə bildirir ki, hazırkı hökumət yalnız taktiki problemləri həll edir: "Halbuki ortada ciddi proqram fəaliyyəti yoxdur. Paşinyan iqtidarının daha ciddi proqramı olmalıdır, eləcə də, müxalifətin də proqramları ciddiliyə əsaslanmalıdır ki, onlar növbədənkənar parlament seçkilərində uğur əldə edə bilsinlər. Proqramlar isə bütün sahələri əhatə etməlidir. Eyni zamanda, Paşinyan iqtidarının yüksək reytinqə malik olmasını qəbul etmirəm". "Növbədənkənar parlament seçkilərində digər siyasi güclər iqtidarın mövcud reytinqi qarşısında problemlər yaşaya bilərmi?" sualını cavablandıran Badalyan cavab verib: "Xeyr, problem yaşamayacaq. Kim deyir ki, hazırkı hakimiyyətin nüfuzu yüksəkdir? Bugünkü hakimiyyətin nüfuzunun olmamasını Brüssel sammiti bir daha sübut etdi".

Beləliklə, Paşinyan özünün hakimiyyət ambisiyasının girovuna çevrilib. Sağlam düşüncəli insanlar hesab edirlər ki, Paşinyanın erməni və dünya ictimaiyyətini aldatmaq cəhdləri fiaskoya uğrayacaq. Bəli, Paşinyanın iddia və bəyanatları uğursuz boşboğazlıqdan başqa bir şey deyil. Bu gün N.Paşinyan ermənilərə həqiqəti deyə bilmir. O, aprel döyüşlərindən sonra qorxuya düşmüş ölkə əhalisi qarşısında Ermənistanın gücsüzlüyünü etiraf edə bilmir. Axı, Paşinyan Dağlıq Qarabağ probleminin həlli ilə bağlı küçə və meydanlarda xalq qarşısında populist vədlər verib. Beləliklə, Paşinyan artıq siyasi simasını itirən uğursuz bir siyasətçiyə çevrilib.

***A.SƏMƏDOVA***


# "Nar" nömrəsini özünlə götür, xaricdə Wi-Fi axtarma

***"Nar" yay mövsümündə səyahətə çıxan abunəçilər üçün sərfəli təklifini təqdim etdi. İndi "Nar" abunəçiləri rominqdə olarkən əla qiymətə təqdim olunan "Tətil" internet paketlərindən yararlana bilərlər. Bunun üçün sadəcə olaraq səfərə çıxdıqda "Tətil" paketlərindən birini sifariş etmək kifayətdir. Abunəçilərin istəklərini nəzərə alan "Nar" rominq internet paketlərini cəmi 2 AZN-dən başlayan qiymətlərlə təqdim edir. 200 MB-lıq internet paketini aktivləşdirmək üçün *777#102#YES, 600 MB-lıq paket üçün *777#105#YES şifrəsini yığmaq kifayətdir. İnternet paketlərindən Rusiya, Gürcüstan, Türkiyə, Ukrayna və digər ölkələrdə yararlanmaq mükündür.***




Şifariş edilən paket daxili internet balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq kifayətdir. "Tətil" paketlərin istifadə müddəti 15 gün təşkil edir. Nar.az saytına daxil olaraq və ya "Tetil" yazıb 777 nömrəsinə SMS göndərməklə "Tətil" internet paketləri haqqında ətraflı məlumat əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə Azərbaycanda ən yüksək nəticəyə nail olmuşdur.




**Təhmasib Novruzov**

## Demokratiya, yoxsa deməkratiya?

***İki əsrdir ki, dünyada ən çox işlənən siyasi termin "demokratiya"dır. Əslində, çoxları demokratiyanın mənasını, əhatə etdiyi fikir yükünü doğru-düzgün anlamır, mahiyyətinin nədən ibarət olduğunu dərk edə bilmir. Amma oturub-durub ağzı köpüklənə-köpüklənə "demokratiya" deyib bağırır. Müşahidələrim, onu deməyə əsas verir ki, bu siyasi terminin əsl məna yükünü heç onu siyasət aləminə gətirənlər də doğru-düzgün izah edə bilmirlər. Demokratiya cəmiyyətin elə bir idarəetmə formasıdır ki, yüz illərdir hər ölkə, hər millət özünün demokratik idarəetmə üsulunu bir cür başa düşüb, həyata keçirib.***

Yazılarımda tez-tez adını çəkdiyim, sitatlarından, deyimlərindən istifadə etdiyim Şükür kişinin bu barədə də dəyərli deyimi olub. Allah ona rəhmət eləsin. İndi Azərbaycanda demokratiya anlamını bizim bəzi müxalifət yazarlarımızın necə anladığını görəndə, başa düşdüm ki, on illər öncə, o rəhmətliyin demokratiya haqqında dedikləri, bizim cəmiyyətin bəzi-bəzi özünü siyasətçi sananların düşüncələri ilə üst-üstə düşür. Rəhmətlik sadə peşə adamıydı. Su cuvarı idi. Əlində bel tarlaları suvarardı. Bir gün (Mişa SSRİ-nin Baş katibi olan zamanlarda) yenə adəti üzrə əlindəki beli yerə vurub, sinəsi ilə ona söykəndi və üzünü bizə tutdu: ay cavanlar, bu padşahımız demokratiya sözün yaman çox işlədir. Görən nə deməkdi bu demokratiya? Bilirdik ki, Şükür kişi heç vaxt elə-belə sual verməz. Odur ki, üzünə baxıb gözlədik ki, sualının cavabını da özü versin. Bir az durub sözünə davam elədi. Hardan biləsiniz ey?.. Siz təkcə kitablardakını bilirsiniz. İndi mən deyim, siz bilin. Bu demokratiya çox yaxşı şeydi. Yəni ağlına nə gəldi, de gəlsin. Orda bir dənə hərfi səhv salıblar, o da yəqin sizin kimiləri çaş-baş salmaqdan ötrü! O söz, əslində, "demokratiya" yox, "deməkratiya" kimi deyilməlidi. Yənı ki, demə, danışma dünyası.

Şükür kişinin bu maraqlı izahından düz otuz il keçir. Əvvəllər bu deyimin də mahiyyətinə varmırdım. Qoca kişidi, sözdü də, dedi. Amma son zamanlar Azərbaycanda baş verənlərə bəzi-bəzi müxalifət yetkililərimizin geydirməyə çalışdığı donu gördükcə və bu "donlara" görə də qaşlarının üstündə gözləri olduğu nəzərlərinə çatdırıldığının şahidi olduqca, anladım ki, o rəhmətlik haqlı deyirmiş.

Hər millət demokratiyanı özünə uyğun yaratdığı kimi, Azərbaycan müxalifəti də onu, məhz deməkratiya kimi anlayıb və özü üçün bunu yaratmaq istəyir. Yəni ağzına nə gəldi de, qorxma, deməyə cəza yoxdu. İş o yerə çatıb ki, özlərini ən vətənpərvər (?), ən milli (?) hesab edən bu zatıqırıqlar hər vəchlə çalışırlar cəmiyyəti inandırsınlar ki, bu hadisələri iqtidar özü təşkil edib və kimlərdənsə qisas məqsədi güdür (dəlinə ağıl ver, ay Allah)! Xüsusilə, müxalifətin baş deməkratlarından olan Qənimət Zahidin sosial şəbəkədə bu mövzuda əldən-ayaqdan getməsini görəndə, Şükür kişini xatırladım və ona rəhmət oxudum. Amma bu deməkratlara bir tövsiyə verməsəm, yazıma yekun vura bilmərəm. Sizin dediklərinizdən onu anlamaq olur ki, ABŞ-da, Rusiyada, Fransada, Almaniyada və başqa-başqa sizin demokratik hesab elədiyiniz güclü ölkələrdə baş verən buna bənzər hadisələri də həmin ölkələrin iqtidarları təşkil edir. Bəlkə Liviyada, İraqda, Misirdə, Suriyada baş verənləri də həmin ölkələrin o zamankı iqtidarları təşkil edirmiş? Demokratiyanı deməkratiya kimi anlayırsınız anlayın, savadınıza şükür, amma dediyinizin də bir mahiyyətini düşünün (əgər düşünəcək bir başınız varsa). Yoxsa belə deməlvarlə olmayan nüfuzunuzu bir az da dərinə soxursunuz...

TƏRS BAXIŞ

# Pul və qrant davası müxalifətin sonunu gətirib

*Sosial şəbəkələrdə gedən müxalifətarası savaş isə qızışıb*

***Dağıdıcı müxalifətin qrant əldə etmək uğrunda savaş aparması kimsəyə sirr deyil. İstər sosial şəbəkələrdə, istərsə də digər cinahlarda bir-birini nədəsə ittiham edib, ağaları qarşısında xal qazanmağa çalışan müxalifətçilər nəticə etibarilə gəlir qazanmağı düşünürlər. Misal üçün, xain və satqın Emin Millinin AXCP sədri Əli Kərimli və dəstəsi arasında başlatdığı qarşıdurma daha da qızışır. Məhz bu amil də onu deməyə zəmin yaradır ki, baş verənlər, bilavasitə qrant üstündə olan müharibədir.***



## "Meydan" TV dağıdıcı müxalifət liderlərinin üzünə bağlanıb

Onu da xatırlatmaq yerinə düşərdi ki, xüsusilə ABŞ Konqresinin binasında Helsinki Komissiyasının apardığı bəlli müzakirələrdən sonra E.Milli və onunla hazırda işbirliyində olan "söyüş müxalifətçiləri" ilə radikal müxalifət təmsilçiləri arasında pul davası çərçivədən çıxaraq, daha da böyüyüb. "Söyüş müxalifəti" liderləri üçün açıq olan "Meydan" TV dağıdıcı müxalifət liderlərinin üzünə bağlanıb. Onlar da alternativ variant kimi Sevinc Osmanqızının kanalından bu günün özündə də istifadə edirlər. S.Osmanqızının özü ilə E.Milli arasında qrant məsələsindən dolayı ədavət olduğu açıq-aşkar görünür. Həm də artıq E.Millinin radikal müxalifət liderlərini fürsət düşdükcə gözdən salması və söyüş müxalifətçilərini yeni müxalifət liderləri kimi təqdim etməyə çalışması müşahidə olunur. Məsələn, Orduxan Teymurxanla Konqresə birgə qatılması da bunu sübut edir.

Digər tərəfdən, əgər əvvəllər "Meydan" TV-də dağıdıcı müxalifət - "Milli Şura" liderlərinə daha çox çıxış imkanları verilirdisə, onların mitinqlərinə getmək üçün insanlara çağırışlar edilirdisə, indi əks-proseslər baş verir.

## Sevinc Osmanqızı ilə Emin Milli arasında xaricdən anti-Azərbaycan dairələrindən ayrılan media qrantları uğrunda açıq mübarizə gedir

Xaricdəki "söyüş müxalifətçiləri" xalqı iğtişaşlara səsləyir və bu zaman gələn liderlik funksiyalarını öz üzərlərinə götürə biləcəklərini deyirlər. Bu da belə qənaətə gəlməyə əsas verir ki, S.Osmanqızı ilə E.Milli arasında xaricdən anti-Azərbaycan dairələrindən ayrılan media qrantları uğrunda açıq mübarizə gedir. Eyni zamanda, artıq radikal müxalifətlə xaricdəki "söyüş müxalifəti" arasında müxalifətə liderlik uğrunda mübarizə başlayır. Bu mübarizədə S.Osmanqızı radikal müxalifətin, E.Milli isə "söyüş müxalifəti"nin tərəfindədir. Lakin ayının min oyunu bir armudun başında olduğu kimi, yaxud Molla Nəsrəddin əhvalatında dava yorğan davası olduğu kimi, bunların da əsas bölə bilmədikləri qrantlardır.

Anti-Azərbaycan dairələrinin ölkəmizdə sabitliyin pozulması üçün ayırdığı qrantlar, ilk növbədə, elə onların maliyyələşdirdiyi qüvvələr arasında sabitliyi pozub. Onların simasında bir daha görürük ki, bu insanları, özlərinin iddia etdikləri kimi, vətən və xalq kimi müqəddəs məfhumlar qətiyyən maraqlandırmır. Onlar üçün ən müqəddəs ideologiya elə puldur. Görünür, elə pul faktoru müxalifətin sonunu gətirib. Faktlar ortadadır.

**Rövşən RƏSULOV**

# Dağıdıcı düşərgədə Rəsul Quliyev qalmaqalı

*Eks-spiker: "Arif Hacılı İsa Qəmbərin əcaib kölgəsidir"*



***Son günlər müxalifət düşərgəsində özündən "müştəbeh" "liderlər"in mənəmlik iddiaları eks-spiker Rəsul Quliyevin əsəblərini yenidən tarıma çəkib. Ölkə müxalifətini müqəvvaya bənzədən R.Quliyev bildirib ki, nə bu günə kimi, nə də bundan sonra AXCP və Müsavat kimi partiyaları tanımayıb, tanımayacaq da: "Kimə dəstəkdən söhbət gedir, müqəvva müxalifətdən? Məgər mən müqəvvaya dəstək verə bilərəmmi?! Bu günə kimi, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və nə bilim bu "badbaxtları" özləri kimi müqəvvalar dəstəkləyə bilər".***

Eks-spiker bildirib ki, nə İ.Qəmbər, nə Ə.Kərimli, nə A.Hacılı, nə C.Həsənli və nə bilim, bu kəslərə bu sualı verməli də gülünclükdür: "Çünki bu "badbaxtlar" başdan-ayağa elə həyasızlıq, satqınlıq simvoludurlar. İndi, sizcə beləlləri xəcalət çəkə bilərlər?" Elə götürək Müsavat başqanı A.Hacılını.

## Arif Hacılı ambisioz insandır

R.Quliyev, Müsavat başqanı A.Hacılını tənqid edərək, onun nəinki başqan, heç müavin olmaq potensialının da olmadığını qeyd edib. Eks-spiker bildirib ki, Müsavatın növbəti qurultayında A.Hacılı başqanlığa əlvida deyəcək: "Əgər qurultay baş tutmasa da, ambisioz A.Hacılının başqanlığa əlvida deməsi baş tutacaq. Partiyada baş verən istefalar onu göstərir ki, artıq Müsavat partiyası yoxdur. Bir də 25 ildən çoxdur ki, yalan, fırıldaqlar edirlər. Artıq onlar arxivdədirlər. Çünki özlərini müxalif liderlər adlandıranlar var ki, yaşca qocalıblar. Nə qədər köhnə hava ilə oynamaq olar? 50-sini keçmələrinə baxmayaraq, gördükləri işləri ardıcıllıqla toplasan, bir vərəq kağıza sığışar. O vərəqdə də, sadəcə olaraq, nə vaxt anadan olub və nə vaxt institutu qurtarıb. 25 ildən çoxdur xəyallarla yaşayırlar. Düşüncəli adamlar yaşadıqlarını dərk edir, müxalifət düşərgəsində olan bəzi mafiozlar isə bunu nə düşünməyə qadirdilər, nə də dərk etməyə".

R.Quliyev A.Hacılıya yönəltdiyi ittihamında onu İ.Qəmbərin əcaib kölgəsi olduğunu bildirib. "Tərbiyəsiz" A.Hacılı heç vaxt, nəinki Azərbaycanın siyasi həyatında, heç Müsavat daxilində "lider" olmayıb, olmayacaq da. İndi bu səbəbdən də dediyim doğru sözlərimdən bu gün bu "badbaxt" kənd müxbiri əsəblərini cilovlaya bilmir? Bu primitiv düşüncəyə sahib olan bu, "badbaxtlar" heç vaxt xəstə düşüncədən uzaqlaşa bilməyəcəklər".

**Rəfiqə HÜSEYNOVA**

# "Çətin ki, nəsə alınsın"

*Əli Orucov: "Müxalifət, zəif və gücsüzdür"*

***- Əli bəy, müxalifət partiyaları yenidən bir araya gələrək, mitinqlər keçirmək iddiası ilə çıxış edirlər. Sizcə, parakəndə və dağınıq halda olan müxalifətin birgə mitinq keçirmək imkanı ola bilərmi?***

- Bu gün izdihamlı mitinqlər keçirmək istəyən siyasi qüvvələr, məncə, reallığı düzgün qiymətləndirməli, bunun üçün sosial sifarişin olub-olmamasını dəqiqləşdirməlidir. Əks-halda, mitinq xatirinə mitinq keçirmək heç bir effekt vermir və diqqəti də cəlb etmir. Mən demirəm ki, kütləvi etiraz aksiyaları üçün əsaslar yoxdur. Xırda da olsa, narazılıqlar var, lakin bu narazılıqlar siyasiləşməyib, fərdi, yaxud da qrup çərçivəsindən kənara çıxmayıb. Eyni zamanda, mitinq keçirmək istəyən siyasi qüvvələr də diqqəti cəlb etmir.

***- Necə düşünürsünüz, mitinq keçirmək ideyası yenə də ümumi müxalifətin adına yazılsa da, əslində isə, Əli Kərimli və Arif Hacılıdan gəldiyini demək olarmı?***

- Bu ideyanın kim tərəfindən gəlib-gəlməməsi önəmli deyil. Önəmlisi odur ki, mitinqlər baş tutacaq, ya yox? Xalq bu ideyanı dəstəkləyəcəkmi? Reallıqlar baxımından, çıxış etsək, hələlik, bu dəstək görünmür.

***- Gözlənilmədən mitinq keçirməyə qərar verilməsinin arxasında hansısa xarici qüvvələrin göstərişinin olduğunu demək olarmı?***

- Bu barədə müvafiq dövlət qurumları araşdırma aparmalı, dövlətin maraqlarına və təhlükəsizliyinə xələl gətirə biləcək halların qarşısını almalıdır. Lakin Ana Yasamızda ölkə vətəndaşlarının sərbəst toplaşma hüququ tanınır. Ancaq bu imkandan sui-istifadə etmək yolverilməzdir.

***- Dəfələrlə "Milli Şura" və Müsavat mitinqlər keçirsə də, uğursuzluğa düçar olublar. Yenidən onları belə bir uğursuzluq gözlədiyini demək olarmı?***



**Müsahibimiz AMİP funksioneri Əli Orucovdur**

- Bu barədə mitinqə qərar verənlər düşünməlidir ki, bu metodla qarşıya qoyduqları hədəflərə, qismən də olsa, çata bilirlərmi? Mənim qənaətimcə, bu cür mitinqlərlə, çətin ki, nəsə alınsın. Çünki müxalifət, zəif və gücsüzdür. Səbəb də, partiya sədrlərinin özündədir.

**GÜLYANƏ**

# Putinin müşaviri 87 yaşında vəfat etdi



Rusiya Federasiyası Prezidentinin müşaviri Veniamin Yakovlev uzun sürən xəstəlikdən sonra 87 yaşında vəfat edib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, mərhumla vida mərasimi iyulun 26-da Moskvada Mərkəzi Klinik Xəstəxanada yerli vaxtla saat 11:00-da keçiriləcək.

# Həyatından çətənə kolu, evindən qələm tapança tapıldı



Polis əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində tədbirlər qətiyyətlə davam etdirilir.

Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Ağdaş Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş Tahir İbrahimovun həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 31 ədəd çətənə kolu, evindən isə 375,5 qram marixuana və 1 ədəd qələm tapança aşkar edilərək götürülüb.

Bundan başqa, Qazax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Ağköynək kənd sakini Elvin Qocayevdən 305 qram marixuana götürülüb. Həmçinin Ağstafa Rayon Polis Şöbəsinin əməkdaşları Qırlı kəndi ərazisində yabanı halda bitmiş, çəkisi 3,5 tona yaxın 4800 ədəd çətənə kolu aşkar edərək məhv ediblər. Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Müharibə və insan hüquqları

***Müstəqil Azərbaycan dövləti sülhsevər siyasət həyata keçirərək heç bir dövlətin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə qəsd etmir, bütün dövlətlərlə münasibətlərdə insan hüquqlarına hörmət prinsipinə təminat verir. Lakin bütün bunlara baxmayaraq, Azərbaycana və azərbaycanlılara münasibətdə heç də bu prinsiplərə əməl olunmur.***

Ermənistan ərazisində yaşayan azərbaycanlıların dədə-baba yurdundan vəhşicəsinə köçürülməsi, Azərbaycanın bir sıra rayonlarının təcavüzkarlıqla ələ keçirilməsi, yüzlərlə azərbaycanlının Ermənistanda əsir saxlanılması, Xocalı faciəsi insan hüquq və azadlıqlarının kobud surətdə, beynəlxalq hüquq normalarına məhəl qoymadan pozulmasının bariz nümunəsidir. Bütün bunlar da erməni tərəfinin "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il Cenevrə Konvensiyasını, yenə 1949-cu ildə qəbul olunmuş "Döyüşən orduda yaralı və xəstələrin aqibətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında", "Müharibə vaxtı mülki əhalinin mühafizəsi haqqında" Cenevrə Konvensiyaları və sonrakı dövrlərdə qəbul olunmuş qanunlar, onlara əlavə protokolları, həmin sənədlərin insan hüquqları ilə əlaqədar tələblərini kobud surətdə pozduğunu bir daha təsdiq edir.

Bundan başqa, Cenevrə Konvensiyalarına əlavə protokollar - 8 iyun 1977-ci ildə qəbul edilmiş "beynəlxalq silahlı münaqişə qurbanlarının mühafizəsinə aid" əlavə protokol (I P), "Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbaqlarının mühafizəsinə aid" əlavə protokol (II P) müdafiəsiz şəxslərlə humanist rəftar edilməsini tələb edir. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən sənədləri həm Azərbaycan Respublikası, həm də Ermənistan 1993-cü ilin iyun ayında imzalamışlar. Lakin Ermənistan dövləti bu, bir sıra müvafiq beynəlxalq sənədlərdən irəli gələn müddəaları kobud şəkildə pozaraq, özünün faşist və təcavüzkar siyasətini hələ ki, davam etdirir.

Bu günədək azərbaycanlıların əsirlikdə və girov saxlanılması İnsan Hüquqları haqqında Bəyannamənin 4-cü maddəsində nəzərdə tutulmuş "heç kəs kölə və ya asılı vəziyyətdə saxlanıla bilməz" müddəasına ziddir. Sənədin 5-ci maddəsində isə heç kəsin işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan münasibətə və cəzaya məruz qoyulması yolverilməz hesab edilir. Azərbaycanlılara qarşı törədilmiş işgəncə və qəddarlıqlar bu müddəaların tələblərinin kobud surətdə pozulmasını göstərir. Bundan başqa, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 900 yaşayış məntəqəsi dağılıb talan edilmiş, doğma evindən didərgin düşmüş, mülki əhalinin dağıdılmış və əmlakı aparılmış evlərinin ümumi dəyəri on milyardlarla dollar həcmindədir. Bütün bunlar da Bəyannamənin hər bir şəxsin sərbəst yaşayış yeri seçmək və əmlakının toxunulmazlığını təsbit edən maddələrinin illərlə pozulmasına dəlalət edir.

Göründüyü kimi, bu cür halların təhlilini davam etdirmək olar. Bütün bunlar da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı azərbaycanlıların hüquq və azadlıqlarının kütləvi surətdə pozulması hallarının danılmaz fakt olduğunu bir daha təsdiqləyir. Bunu nəzərə alan Azərbaycan dövləti və onun sabiq başçısı, Ümummilli Lider və dünya səviyyəli siyasətçi Heydər Əliyev ərazi bütövlüyünün və həm də qaçqın və məcburi köçkünlərin erməni təcavüzkarları tərəfindən kobud surətdə pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirmiş və heç bir şübhə yoxdur ki, bu siyasət özünün müsbət nəticələrini verəcəkdir.

İnsan hüquqlarına dair bir çox Müqavilə və Konvensiyaları qəbul etmiş BMT və digər beynəlxalq təşkilatlar, həmçinin, iştirakçı dövlətlər bu sənədlərdə nəzərdə tutulmuş hüquq və azadlıqların təmin olunmasına hörmətlə yanaşmalıdırlar və bu beynəlxalq qurumlar bu məsələyə daha ciddi münasibət göstərməlidirlər. Bu baxımdan, gələcək fəaliyyət istiqaməti kimi böyük dövlət adamı Heydər Əliyevin aşağıdakı fikirləri qəbul edilməlidir: "Hər bir fərdin hüququ qorunmalı və təmin olunmalıdır, əgər insanların hüququ kütləvi surətdə pozulursa, hüquqları tapdalanırsa, bu məsələ daha çox diqqəti cəlb etməlidir və buna münasibət də daha üstün xarakter daşımalıdır."

Artıq neçə illərdir ki, müharibə şəraitində yaşayan Azərbaycan vətəndaşları beynəlxalq təşkilatların mahiyyət etibarilə bir-birindən qətiyyən fərqlənməyən yazılı, yaxud şifahi bəyanat səsləndirmələrinin şahidi olur. Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistan dövləti təcavüz siyasətinə son qoymaq əvəzinə, yeni-yeni ərazilər işğal etmək niyyətinə düşüb. Dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların ikili standartlarından həvəslənən erməni silahlı birləşmələri heç nədən çəkinmədən atəşkəs rejimini pozmaqda davam edir. Üzdə özlərini dünyada sülhün və əmin-amanlığın carçısı kimi təqdim edən beynəlxalq təşkilatlar isə seyrçi mövqelərini sərgiləməkdən usanmırlar. Məlum olduğu kimi, son günlər Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozması nəticəsində hərbçilərimiz şəhid olub, çoxlu sayda yaralananlar var. Atəşkəsin elan edildiyi 20 il müddəti ərzində, ilk dəfədir ki, bu qədər insan tələfatı qeydə alınır. Ermənistan hərbi birləşmələri genişmiqyaslı hücumlarını davam etdirməkdədirlər. Belə bir şəraitdə beynəlxalq təşkilatlar öz işlərini quruca bəyanat verməklə bitmiş hesab edirlər. Bu mövqe isə həmin təşkilatlar tərəfindən ikili standartların nümayişindən başqa bir şey deyil. Azərbaycanla münasibətdə beynəlxalq təşkilatların ikili standart nümayiş etdirməsinin kökündə qaranlıq məqamlar mövcuddur. Əks-halda Rusiya kimi dünyaya meydan oxuyan ölkəyə sanksiyalar tətbiq edən dünya Ermənistana qarşı bu addımı atmaqdan çəkinməzdi. Təsəvvür edin, erməni silahlı qüvvələri BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrə məhəl qoymadan, suveren Azərbaycanın ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağ regionunu hələ də işğal altında saxlayır, beynəlxalq təşkilatlar isə ona "gözün üstə qaşın var" deməyə tərəddüd edirlər. Məlumat üçün qeyd edək ki, beynəlxalq təşkilatlar təkcə Dağlıq Qarabağ məsələsində deyil, eləcə də insan haqları sahəsində də Azərbaycana qarşı ikili standartlar nümayiş etdirir. Onu da qeyd edək ki, müstəqillik illərində müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə belə mövqenin şahidi olmuşuq.

Məlum olduğu kimi, beynəlxalq humanitar hüquq, silahlı münaqişələr zamanı, tətbiq olunan döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran, silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəldilmiş beynəlxalq-hüquqi normaların məcmusuna deyilir. "Beynəlxalq humanitar hüquq" görkəmli alim Jan Pikte tərəfindən beynəlxalq-hüquqi leksikona daxil edilmiş nisbətən yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründə tətbiq edilən hüquq; müharibə hüququ (jus in bello); silahlı münaqişələr hüququ; müharibə qanun və ədalətli və s.

Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, obrazlı desək, birbaşa döyüş meydanına gəlir və sırf humanist mövqedən çıxış edərək, artıq başlamış müharibəni, - onun xarakterindən və başlama səbəblərindən asılı olmayaraq, - müəyyən normativ çərçivəyə salmağa can atır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca məqsədini göstərmək olar:

1. Kombatant olmayanlan, yəni mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan "Cenevrə hüququ" həyata keçirir. "Cenevrə hüququ" termini, əsas etibarilə, Müharibə Qurbanlarının Müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarına istinad edilərək götürülmüşdür.

2. Seçimsiz zorakılığın, artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədin həyata keçirilməsinə yönəlmiş "Haaqa hüququ" adlandırılır (1899 və 1907 -ci illərdə Haaqa Sülh Konfransında qəbul olunmuş müvafiq sənədlərə istinadən).

Beynəlxalq humanitar hüquq, əsas etibarilə, müqaviləyə söykənir. Bu sahədə aşağıdakı sazişləri göstərmək olar:

* Partlayıcı və yandırıcı güllələrin ləğv edilməsi haqqında Sankt-Peterburq Bəyannaməsi (11 dekabr 1868);

* Asanlıqla dönə bilən və yastılanan güllələrin istifadə olunmaması haqqında Haaqa Bəyanaməsi (29 iyul 1899);

* Quru müharibəsinin qanun və adətləri haqqında IX Haaqa Konvensiyası (Quru müharibəsinin qanun və adətləri haqqında)-18 oktyabr 1907;

* Boğucu, zəhərli və ya digər belə qazların və bakteroloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Cenevrə Protokolu (17 iyun 1925);

* Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (9 dekabr 1948);

* Müharibə Qurbanlarının Müdafiəsinə dair Cenevrə Konvensiyaları (12 avqust 1949);

* Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (I Konvensiya);

* Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (II Konvensiya);

* Hərbi Əsirlərlə Rəftara dair Cenevrə Konvensiyası (III Konvensiya);

* Müharibə zamanı mülkü şəxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası (IV Konvensiya);

* Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyası (14 may 1954);

* Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib-hazırlanması, istehsal edilməsi və ehtiyata toplanılmasının qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (10 aprel 1972);

* Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqındaKonvensiya (10 dekabr 1976);

* 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokollar;

* Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (I Protokol) 8 iyun 1977;

* Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (II Protokol) - 8 iyun 1977;

* Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya (10 oktyabr 1980).

Konvensiyaya 3 protokol əlavə olunmuşdur:

*Aşkar edilməyən qəlpələr haqqında Protokol (I Protokol).

* Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (II Protokol);

* Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (III Protokol);

* Kimyəvi silahların işlənib-hazırlanması, istehsal edilməsi, ehtiyata toplanılması və tətbiq edilməsinin qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (1993).

Sadalanmış bu beynəlxalq müqavilələr içərisində beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətlisi, şübhəsiz ki, Müharibə Qurbanlarının Müdafiəsinə dair 1949-cu II Cenevrə Konvensiyaları və onlara 1977-ci il Əlavə Protokollarıdır. Beynəlxalq humanitar hüquqda adət normaları da əhəmiyyətli rol oynayır. Bu normaların əksər hissəsi ümumi beynəlxalq hüququn bir hissəsidir və bütövlükdə, beynəlxalq birlik tərəfindən jus cogens normaları kimi tanınmışdır. Bu cür normalar, hər hansı Konvensiyanın iştirakçısı olub-olmamasından asılı olmayaraq, dünyanın hər bir dövləti üçün məcburidir. Məsələn, Yuqoslaviya tribunalı Disko Tadiç işində (1995) qeyd etmişdir ki, daxili silahlı münaqişələr dövründə müharibə qurbanları ilə rəftara aid normalar mövcud beynəlxalq adət hüququnun bir hissəsi kimi hamılıqla tanınmışdır.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Son səhifə 25 iyul

## Robot tarakanlar aviamühərrikləri təmir edəcək



Böyük Britaniyanın "Rolls-Royce" şirkəti nasazlıqların aşkarlanması və aradan qaldırılması üçün aviamühərriklərin daxilinə quraşdırılacaq miniatür robot tarakanlar hazırlayıb. AZƏRTAC şirkətə istinadla xəbər verir ki, layihə Britaniyada "Farnborough" aviasalonunda təqdim edilib. Mühəndislərin sözlərinə görə, texnologiya mühərrikin vəziyyətinin monitorinqini sürətləndirməyə imkan verəcək, eləcə də, təmir məqsədilə onun hər dəfə çıxarılmasına ehtiyac qalmayacaq.

Mütəxəssis Ceyms Kell bildirib ki, mühərrikin adi yoxlanışı üçün 5 saat tələb olunur, bu kiçik robotlarla isə 5 dəqiqə lazım gələcək.

Şirkət nümayəndələrinin fikrincə, kiçik robot həşəratlar mühəndislərin vaxtına qənaət etməklə onların aviamühərrik daxilində sıx məkanda gözlərinə və əllərinə çevriləcəklər. Şirkət tərəfindən mühəndislərin daxilə baxış keçirməsi və mühərrikin hissələrə ayrılmaması üçün hər robotun kamera ilə təchiz edilməsi planlaşdırılır. Robot tarakanların hazırlanmasında Harvard və Nottingem universitetlərinin mütəxəssisləri iştirak edirlər.

## Kiyevdə çəkisi 18 kiloqrama yaxın olan göbələk aşkarlanıb



Kiyev vilayətinin Beloçerkovski rayonunda 18 kiloqrama yaxın çəkisi olan nəhəng göbələk aşkarlanıb. AZƏRTAC-ın yerli mətbuata istinadla verdiyi məlumata görə, Drozdı kəndinin sakinləri meşədən göbələk yığarkən 17,75 kiloqramlıq nəhəng göbələyə rast gəliblər.

Ukraynanın Milli Rekordlar Reyestrindən bildiriblər ki, ölkədə bu ağırlıqda və ölçüdə göbələk qeydə alınmayıb. Göbələyin rekordlar kitabına düşməsi üçün müvafiq işlər görülür.

## Şəkərli diabet onkoloji xəstəliklərə tutulma riskini xeyli artırır



Şəkərli diabet onkoloji xəstəliklərə tutulma riskini xeyli artırır. Avstraliya, Böyük Britaniya və ABŞ alimlərindən ibarət tədqiqat qrupu bu qənaətə gəlib. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, tədqiqatın nəticələri "Diabetologiya" jurnalında dərc olunub. Tədqiqatçılar 20 milyon pasiyent haqqında məlumatları təhlil ediblər. Məlum olub ki, birinci və ikinci tip diabet "həm kişilərdə, həm də qadınlarda bütün növ onkoloji xəstəliklər üçün risk amilidir".

Alimlərin əldə etdiyi nəticələrdə iştirakçıların cinsi mənsubiyyətindən asılı olaraq bəzi fərqli cəhətlər üzə çıxıb. Belə ki, diabetli qadınların xərçəngə tutulma ehtimalı endokrin xəstəlikləri olmayanlara nisbətən 27 faiz çoxdur. Kişilər üçün bu göstərici 19 faiz təşkil edir. Diabetli qadınlar risk zonasına daxildirlər: onların böyrəklərində, ağız boşluğunda, mədələrində bədxassəli şişlərin, habelə leykemiyanın yaranma ehtimalı yüksəkdir. Tədqiqatın yekunlarına dair hesabatda deyilir: "Ümumilikdə hesablanıb ki, diabetdən əziyyət çəkən qadınların xərçəngin hər hansı növü ilə xəstələnməsi ehtimalı kişilərdə olduğundan 6 faiz çoxdur".

## Başsağlığı

"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev Tağı Əhmədova qardaşı oğlu

**Sahil Əhmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

## AFFA-nın İcraiyyə Komitəsinin iclası keçirilib



İyulun 24-də AFFA-nın inzibati binasında İcraiyyə Komitəsinin iclası keçirilib. Müzakirələrdən sonra 2018-2019-cu il mövsümündə Birinci Divizionda oyunlar Azərbaycan Premyer Liqası klublarının əvəzedici komandaları və ötən mövsüm Birinci Divizionda çıxış etmiş 6 və ya 4 klubun iştirakı ilə keçirilməsi barədə qərar qəbul olunub.

Turnirdə iştirak edən komandaların heyətində 4 futbolçu yaş limiti olmadan, 6 futbolçu 1998-ci il və daha gənc təvəllüdlü, 1-i 2001-ci il və daha aşağı yaşlı olacaq. Qaydalara görə, yaş limiti tətbiq edilməyən 4 futbolçudan 2-si legionerlərdən seçilə bilər. Həmçinin iclasda futbol veteranları - Nüvər Xasıyevə və Səfər Rəhimova AFFA-nın təqaüdünün verilməsi qərara alınıb.

## Ağır atletimiz Avropa birinciliyində qızıl medal qazanıb



Milanda 15 və 17 yaşadək yeniyetmə oğlanlar və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi davam edir. Qırxa yaxın ölkədən 388 atletin (169 qız və 219 oğlan) iştirak etdiyi turnir Argentinanın paytaxtı Buenos-Ayresdə baş tutacaq Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. AZƏRTAC xəbər verir ki, Milandakı birincilikdə Azərbaycan yığmasının üzvlərindən daha ikisi - Murad Əliyev və Kamil Nəbiyev 15 yaşadək oğlanların mübarizəsində 62 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb.

Kamil Nəbiyev birdən qaldırma hərəkətində 80 kiloqramın öhdəsindən gələrək bu hərəkətdə 12-ci olub. O, təkanla qaldırmada 104 kiloqramı ram edərək doqquzuncu yeri tutub. Toplam 184 kiloqram (80+104) nəticə ilə Kamil Nəbiyev onuncu yerdə qərarlaşıb.

Murad Əliyev isə bu çəkidə Avropa birinciliyinin qalibi adını qazanıb. Birdən qaldırma hərəkətində 100 kiloqram nəticə ilə bütün rəqiblərini üstələyən atletimiz qızıl medala layiq görülüb. Təkanla qaldırma hərəkətində də uğurlu çıxışını davam etdirən təmsilçimiz 118 kiloqramı başı üzərinə qaldıraraq bu hərəkətdə də qalib olub. Toplam 218 kiloqram (100+118) nəticə ilə Avropanın ən yaxşısı adını qazanan Murad Əliyev yekun sıralamada da fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.



## Türkiyə Futbol Federasiyası Məsut Özilə dəstək nümayiş etdirib

Türkiyə Futbol Federasiyasının prezidenti (TFF) Yıldırım Demirören Almaniya milli komandasından ayrılan türk əsilli futbolçu Məsut Özilə dəstək nümayiş etdirib. Y.Demirörenin Türkiyə Futbol Federasiyasının saytında yerləşdirilən bəyanatında qeyd olunub: "TFF-in rəhbəri olaraq, Məsut Özilə və ailəsinə tam dəstəyimi ifadə edirəm. Türk əsilli olmasına görə ona qarşı təhdid və təhqir ifadələrini qınayıram. Hər bir futbolçu təhqir, ayrı-seçkilik və nifrətdən qorunmalıdır. Beynəlxalq futbol ictimaiyyəti irqçilik və dözümsüzlüklə mübarizəni davam etdirməlidir".

Xatırladaq ki, iyulun 22-də Məsut Özil Almaniya milli komandasının heyətindən ayrıldığını açıqlayıb. Buna səbəb M.Özilin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşməsi ilə əlaqədar Almaniya Futbol Federasiyasının (DFB) rəhbəri Reinhard Qrindel tərəfindən tənqid edilməsi olub. "Arsenal" klubunda çıxış edən yarımmüdafiəçi "Instagram"dakı səhifəsində DFB-nin yüksək səviyyəli rəsmilərinin onun türk köklərinə hörmət etmədiklərini və bundan təbliğat vasitəsi kimi istifadə etmələrini qınamışdı.

2009-cu ildən Almaniya millisinin formasını geyən M.Özil 92 oyunda 23 qol vurub və 28 məhsuldar ötürmə verib. O, 2014-cü ildə Almaniya milli komandasının heyətində dünya çempionu olub.

## Luka Modricdən nümunəvi davranış



Xorvatiya yığmasının və Madrid "Realının" yarımmüdafiəçisi Luka Modric ağır xəstəlikdən əziyyət çəkən Selena adlı balaca qızın məktubuna cavab verib. SİA-nın məlumatına görə, Xorvatiya milli komandasının kapitanı balaca Selenaya 2018-ci ildə dünya çempionatında göstərdiyi dəstəyə görə təşəkkür edib və ona xəstəliyi ilə mübarizədə möhkəm iradə arzulayıb. Modric həmçinin, Xorvatiya yığmasında geyindiyi formasını məktuba əlavə edib. Xorvatiya yığması mundialın finalında fransızlara məğlub olmuşdu. Modriç isə turnirin ən yaxşı oyunçusu seçilib.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**